26 iyul 2019 №54 (1639)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Akademik Milli Dram Teatrının 100 illik yubileyi qeyd ediləcək

Prezident İlham Əliyev iyulun 24-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, 2019-cu ilin oktyabr ayında Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının fəaliyyətə başlamasının 100 illiyi tamam olur.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı yarandığı vaxtdan etibarən klassik ənənələrə əsaslanmaqla yanaşı, müasir səhnə mədəniyyətinin zirvələrinə doğru inamla irəliləyərək qısa müddətdə zəngin inkişaf yolu keçmişdir. Ötən dövr ərzində görkəmli nailiyyətlər qazanan teatr xalqın ədəbi sərvətinə çevrilmiş və ölkənin ictimai-mədəni həyatında layiqli mövqe tutmuşdur.

*davamı səh. 2-də*

## Mədəniyyət Nazirliyində Qırğızıstan nümayəndə heyəti ilə görüş

Mədəniyyət naziri Əbülfəs Qarayev iyulun 24-də Qırğızıstan Milli Yazıçılar Birliyinin sədri Nurlan Kalıbekovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nazir vurğulayıb ki, Azərbaycanda təşkil edilən beynəlxalq kitab sərgiləri, xarici yazıçıların əsərlərinin tərcüməsi, eləcə də TÜRKSOY-la birgə bu istiqamətdə həyata keçirilən layihələr türkdilli xalqların ümumi ədəbi inkişafına töhfələr verir.

Qırğızıstan Milli Yazıçılar Birliyinin sədri vurğulayıb ki, eyni kökdən olan xalqlar daha sıx əməkdaşlıq etməli, qloballaşma dövründə bir-birini daha çox dəstəkləməlidirlər.

*səh. 3*

## Milli Kino Günü qeyd olunacaq

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə avqustun 2-də Nizami Kino Mərkəzində Milli Kino Gününə həsr olunmuş tədbir keçiriləcək.

Tədbirdə dövlət sifarişi ilə istehsal olunmuş ekran əsərləri – gənc rejissorlar Kamal Yaşarın "Dan yeli", Pərviz Həsənovun "Soraq", eləcə də Orxan Ağazadənin müstəqil şəkildə çəkdiyi "Oturacaqlar" qısametrajlı bədii filmləri nümayiş etdiriləcək.

*səh. 2*

# Azərbaycanda ilk dəfə Milli Yaylaq Festivalı keçirilir

Azərbaycanda yaylaq və elat ənənələrinin yaşadılması və təbliği məqsədilə iyulun 26-dan 28-dək ilk dəfə olaraq Gədəbəy rayonunda Milli Yaylaq Festivalı keçiriləcək.



Festival Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), "Cavadxan" Tarix və Mədəniyyət Fondu, Gədəbəy Rayon İcra Hakimiyyətinin birgə tərəfdaşlığı ilə reallaşır. Mədəniyyət Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Turizm Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və digər dövlət qurumları tədbirin tərəfdaşları sırasındadır.

Gədəbəy rayonu ərazisində yerləşən Düzyurd-Miskinli yaylağında, orijinal konsepsiya əsasında keçiriləcək festivala yerli iştirakçılar və qonaqlarla yanaşı, 20-yə yaxın xarici ölkədən fəxri qonaq və turistlərin gəlişi də gözlənilir.

Festivalın daha möhtəşəm və yaddaqalan keçirilməsi, həmçinin Gədəbəyin tarixi-mədəni irsinin və turizm potensialının yüksək səviyyədə təbliği üçün təşkilatçılar tərəfindən üç ay əvvəldən hazırlıq işlərinə başlanılıb.

Bu məqsədlə Miskinli yaylağının ərazisində "Yaylaq yurdu" adlı etno-qəsəbə salınıb. Etno-qəsəbənin ərazisində yaşayış yurdları (alaçıqlar) ilə yanaşı, cıdır meydanı, yaylaq (kənd təsərrüfatı) bazarı, sənətkarlıq guşəsi, "Dədə Qorqud ocağı" (tamaşaçılar üçün səhnə), yaylaq yatağı (ev heyvanları üçün yerlər), pəhləvan meydanı (yarış sahəsi), "Aşıq Ələsgər ocağı", yaylaq süfrəsi (yaylaq mətbəxi) və digər tematik sahələr yaradılıb.

Etno-qəsəbənin iyul-avqust ayları ərzində turistlər və qonaqlar üçün fəaliyyət göstərəcəyi nəzərdə tutulub.

Festival çərçivəsində el şənliyi (etnoqrafik mədəni-idman tədbiri) də keçiriləcək.

Milli Yaylaq Festivalı şərti olaraq mədəni-etnoqrafik, milli yaylaq (idman) oyunları, eko-etnoturizm adlı üç hissədən ibarət olacaq.

Turistlər üçün ekskursiyalar da təşkil ediləcək.

## "JARA 2019" musiqi festivalı başlandı

Builki "Jara" festivalının hazırlıq işlərinə də həmişəki kimi təxminən bir il vaxt sərf olundu. Festival çərçivəsində maraqlı ifalarla yanaşı, "JARA 2018" haqqında çəkilmiş filmə baxış da olacaq.



Bu sözləri Azərbaycanın Xalq artisti, "JARA" Beynəlxalq Musiqi Festivalının təşkilatçılarından Emin Ağalarov iyulun 25-də mətbuat konfransında bildirib. Qeyd edib ki, festivalda dörd gün ərzində 200-dən çox ifaçı çıxış edəcək. İyulun 26-da ötən il çəkilmiş "Bir dəfə JARA-da" filminin ulduzlar üçün təqdimatı olacaq. Bu ekran əsərində festivalın iştirakçıları rol alıb.

Mətbuat konfransında, həmçinin festivalın digər təşkilatçıları – Rusiyanın Əməkdar artisti Qriqori Leps, Olqa Bukova, Yana Çurikova, dünya şöhrətli ifaçılar Filipp Kirkorov, Ani Lopak, Sergey Kojevnikov və Zivert jurnalistlərin suallarını cavablandırıblar.

"Dörd gün ərzində əsl musiqi bayramı olacaq. Mən çox festivalda iştirak etmişəm, "JARA" Beynəlxalq Musiqi Festivalı çox yüksək səviyyədə təşkilatçılığı ilə digərlərindən seçilir", - deyə Filipp Kirkorov vurğulayıb.

*davamı səh. 2-də*

## Şəki Xan sarayı rəsmlərinin estetikası haqqında

XVIII əsr Azərbaycan memarlığının incilərindən sayılan Şəki Xan sarayı həm də özünəməxsus estetikası olan süjetli və ornamental kompozisiyalı divar rəsmləri ilə məşhurdur, desək, yanılmarıq.



Belə ki, sarayın hər iki mərtəbəsinin mərkəzi zalları və ikinci mərtəbənin yan otaqlarının bütün divarları, taxçalar, divarlardan tavanlara stalaktit formalı keçidlər və tavanlar rəsmlərlə bəzədilmişdir. Saraya xüsusi gözəllik verən ecazkar şəbəkələrin qonşuluğunda qərarlaşan divar rəsmləri dörd qrupa bölünür. Nikbin koloriti ilə diqqətçəkən bu rəsmlər arasında həndəsi və nəbati naxışlı kompozisiyalara, süjetli naxışlara, heyvan, eləcə də bitki və heyvanların birgə göründüyə gətirildiyi təsvirlərə rast gəlmək mümkündür. Əlvanlığı elə ilk baxışdan duyulan bu təsvirlərin cəlbediciliyinin əldə olunmasında onun yaradıcıları qızılı, firuzəyi, qırmızı, bənövşəyi və sarı rənglərdən ustalıqla istifadə etmişlər.

*davamı səh. 7-də*




## Qəbələ festivalında 11 ölkənin musiqiçiləri bir araya gələcək

İyulun 31-dən avqustun 5-dək Qəbələ şəhərində növbəti musiqi festivalı keçiriləcək. 2009-cu ildə əsası qoyulan Qəbələ festivalı ötən müddətdə dünya musiqi xəritəsində özünə layiqli yer qazanıb.

Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin və "Gilan Holdinq"in dəstəyi ilə reallaşacaq XI Qəbələ Beynəlxalq Musiqi Festivalı 11 ölkədən musiqiçiləri bir araya gətirəcək.

Festivala Azərbaycan, Rusiya, İsrail, ABŞ, İtaliya, İsveçrə, Ukrayna, Özbəkistan, Litva, Çin və Türkiyədən kollektivlər, dirijorlar və ifaçılar qatılacaq.

Festivalın təntənəli açılış mərasimi avqustun 1-də Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində olacaq.

*səh. 2*

## "Milyonçu qadın"la görüşmək üçün...

Həyatda milyonçu qadınla rastlaşmısınız? Yox? İşdir, belə bir qadınla, özü də cavan və yaraşıqlısı ilə rastlaşsanız və onunla uzunmüddətli ünsiyyət saxlamaq, yaxud münasibət qurmaq şansınız olsa, necə?... Nə yaman fikrə getdiniz?

Məlum məsələdir, bu suala qadınların və kişilərin cavabları fərqli olacaq. Amma əminik ki, aralarında bir sualı verənlər də tapılacaq, yəni soruşacaqlar ki, subaydır, yoxsa... Qadınlar çaşqın nəzərlərimizi görüb dərhal deyəcəklər ki, yəni maraqlanırıq da... bizim bir xalaoğlu var, yaşı keçir, amma hansı qızı göstəririk, bəyənmir, dedim bəlkə... Yəni bu ruhda və s. Kişilər nə soruşacaqlar? Ay başınıza dönüm, qadınların bu sayaq sorğusualından sonra onların həmin milyonçu qadınla bağlı sualları bəllidir də... Sadəcə, biz də sizi – kimliyi, ailə vəziyyəti fərq etmədən – bir milyonçu qadınla tanış etmək istəyirik...

*davamı səh. 5-də*

## Uşaqlarımız ekran-efirdə nəyi izləsinlər?

Uşaqların mənəvi tərbiyəsi baxımından tətillərin əla fürsət olduğu bəlli məsələdir. Onların hərtərəfli, ahəngdar inkişafı daxili hisslərindən, əhval-ruhiyyələrindən çox asılıdır. Bir də əsas odur ki, bu gün həm sosial şəbəkələr, həm də televiziya verilişləri vasitəsilə uşaqlara mənəvi-psixoloji tərbiyə, əxlaq, mədəni irsə və cəmiyyətə qarşı mərhəmət hissini aşılayaq.

İnternet əsrində biz uşaqları rahatlıq, beyin dincliyi və yuxarıda sadaladıqlarımızla təmin edə bilirikmi? Tətil günlərinin mənalı keçməsi, növbəti tədris ilində uğur qazanılması, sinif yoldaşları ilə münasibətlərin formalaşması üçün hansı addımları atırıq, hansı işləri görürük? Bu suallarımızla əlaqədar televiziyalarımızda yay tətili günlərində nümayiş olunan verilişlər və bədii filmlər haqda mütəxəssislərin rəyini öyrəndik.

*davamı səh. 4-də*

Qubada regional mətbəx nümunələri nümayiş olunacaq



*səh. 3*

İmadəddin Nəsimi yaradıcılığına həsr olunmuş rəsm müsabiqəsi davam edir

*səh. 3*



Bayburtda Dədə Qorqud festivalı keçirilir

*səh. 8*

## Akademik Milli Dram Teatrının 100 illik yubileyi qeyd ediləcək

*əvvəli səh. 1-də*

Sənətsevərlər Azərbaycan dramaturgiyasının bütün diqqətəlayiq nümunələri ilə məhz Akademik Milli Dram Teatrının dolğun repertuarı sayəsində yaxından tanış olmaq imkanı əldə etmişlər. Milli Dram Teatrı, eyni zamanda, dünya dramaturji irsində fəxri yer tutan və ümumbəşəri ideallar ifadə edən qiymətli əsərləri səhnələşdirməklə Azərbaycan səhnə sənətinin dünya mədəniyyəti ilə daha da yaxınlaşmasında fəal rol oynamışdır. Teatrın səhnəsində bədii-estetik dəyəri ilə seçilərək uzun illər repertuardan düşməyən və böyük uğurla nümayiş etdirilərək tamaşaçı yaddaşında silinməz iz qoyan həmin əsərlər ölkə teatr salnaməsinin parlaq səhifələrini təşkil edir.

Milli Dram Teatrında Azərbaycan səhnəsinin ən qüvvətli aktyorlar nəsli yetişmişdir. Mirzəağa Əliyev, Mərziyyə Davudova, Ələsgər Ələkbərov, Adil İsgəndərov, Hökümə Qurbanova, İsmayıl Osmanlı, Fatma Qədri, Barat Şəkinskaya, Leyla Bədirbəyli, Məmmədrza Şeyxzamanov, Həsənağa Turabov və digər qüdrətli sənətkarların bu teatrın səhnəsində misilsiz ustalıqla canlandırdıqları çox sayda koloritli, mükəmməl obrazlar Azərbaycan mədəniyyəti və teatrı tarixinə qızıl xətlə yazılmışdır.

Teatrın səhnə həyatı verdiyi mütərəqqi ideyalı əsərlərin cəmiyyətdə yüksək mənəvi keyfiyyətlərin təlqin olunması və estetik zövqün formalaşdırılmasında, xüsusən gənc nəslin vətənpərvərlik və əxlaqi dəyərlərə bağlılıq ruhunda tərbiyəsində mühüm rolu vardır. Teatr, həmçinin beynəlxalq festivallardakı çıxışları ilə ölkənin mədəni nailiyyətlərinin təbliğində yaxından iştirak etmişdir. Hazırda öz inkişafının yeni mərhələsinə qədəm qoymuş Milli Dram Teatrı Azərbaycanın özünəməxsus teatr ənənələrinin qorunub saxlanılmasında və dövlətin mədəniyyət siyasətinin gerçəkləşdirilməsində üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməkdədir.

Sərəncamda Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə, Azərbaycan Teatr Xadimləri İttifaqının təkliflərini nəzərə almaqla, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirmək tapşırılıb.

## Milli Kino Günü qeyd olunacaq




Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə avqustun 2-də Nizami Kino Mərkəzində Milli Kino Gününə həsr olunmuş tədbir keçiriləcək.

Mədəniyyət və incəsənət xadimlərinin, kino ictimaiyyəti və həvəskarlarının iştirak edəcəyi mərasimdə dövlət studiyalarında son illər ərzində görülmüş işlər haqqında videoçarxlar vasitəsilə məlumat verilməsi və bir qrup kino xadiminin mükafatlandırılması nəzərdə tutulub.

Tədbirdə dövlət sifarişi ilə istehsal olunmuş ekran əsərləri – gənc rejissorlar Kamal Yaşarın "Dan yeli", Pərviz Həsənovun "Soraq", eləcə də Orxan Ağazadənin müstəqil şəkildə çəkdiyi "Oturacaqlar" qısametrajlı bədii filmləri nümayiş etdiriləcək.

## Türkiyə vətəndaşları üçün viza rejimi aradan qaldırılır

Xarici İşlər Nazirliyi Azərbaycanla Türkiyə arasında viza rejiminin ləğvi ilə bağlı məlumat yayıb.

Məlumatda xalqlarımız arasında ortaq etnik-mədəni, tarixi köklərə, qardaşlıq və dostluq, həmrəyliyə söykənən Azərbaycan-Türkiyə əlaqələrinin ulu öndər Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamına uyğun olaraq ən yüksək səviyyədə olduğu bildirilir.

Qeyd edilir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın səyləri ilə ikitərəfli münasibətlərimiz uğurla inkişaf edir. Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı ölkələrimiz arasında viza sahəsində əməkdaşlığın dəyərləndirilməsi və xalqlarımızın sərbəst gediş-gəlişinin təmin edilməsi zərurətini şərtləndirir. Bu baxımdan, Azərbaycan Respublikasına 30 günədək müddətə səfər etmək istəyən Türkiyə Respublikasının ümumvətəndaş pasportuna malik vətəndaşları üçün 1 sentyabr 2019-cu il tarixindən etibarən viza tələbi ləğv edilir. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi tərəfindən Türkiyə Respublikasının Xarici İşlər Nazirliyinə viza tələbinin ləğvi ilə bağlı nota ünvanlanıb.

Məlumatda bildirilir ki, Azərbaycan Respublikası ərazisində 30 gündən artıq qalmaq istəyən Türkiyə Respublikası vətəndaşlarının statusu Azərbaycan Respublikasının müvafiq qanunları ilə tənzimlənir. Türkiyə Respublikası Hökumətinin qərarına əsasən, bu ölkəyə 30 günədək səfər edən Azərbaycan Respublikası vətəndaşları viza tələbindən azad edilmişdi.

Viza tələbinin ləğvi qərarı Azərbaycan və Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin yüksələn xətlə inkişafına növbəti əsaslı töhfə olacaq.

## Aprel şəhidinin xatirəsi anılıb

İyulun 25-də Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Aprel şəhidi polkovnik-leytenant Sənan Axundovun xatirəsi anılıb.

Tədbirdə hərbçi, şair, publisist Zəminə Xınalının şəhidin xatirəsinə həsr edilən "Təki vətən yaşasın" adlı mənzum pyesi və "Müqəddəs şəhid" miniatür kitabının təqdimatı olub.

Mərkəzin rəisi vəzifəsini icra edən mayor İlkin Qayıbov çıxış edərək Sənan Axundovun ömür yolundan danışıb.

Bildirib ki, Sənan Axundov 1979-cu il sentyabrın 29-da Füzuli rayonunda anadan olub. Bakı Ali Hərbi Məktəbini, Almaniyada Hərbi Akademiyanı bitirib. Müdafiə Nazirliyi sistemində sektor müdiri vəzifəsinədək yüksəlib. Aprel hadisələrində böyük ruh yüksəkliyi ilə doğulub boya-başa çatdığı Füzuli bölgəsinə gedib və Lələtəpədə vəzifə səlahiyyətlərinin icrası zamanı zabit yoldaşlarını ölümün pəncəsindən xilas edərkən qəhrəmancasına həlak olub.

Müdafiə Nazirliyi sistemində işlədiyi müddətdə şəhid Sənan Axundov orden, medal və fəxri fərmanlara layiq görülüb.

Tədbirdə şəhidlərimizə həsr olunmuş bədii əsərlərdən söz açılıb. Yazıçılar Birliyinin üzvü Zəminə Xınalının da bu qəbildən əsərləri yüksək dəyərləndirilib.

Sonra tədbir bədii hissə ilə davam edib.

# Qəbələ festivalında 11 ölkənin musiqiçiləri bir araya gələcək

Xəbər verdiyimiz kimi, iyulun 31-dən avqustun 5-dək Qəbələ şəhərində növbəti musiqi festivalı keçiriləcək. 2009-cu ildə əsası qoyulan Qəbələ festivalı ötən müddətdə dünya musiqi xəritəsində özünə layiqli yer qazanıb.

Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin və "Gilan Holdinq"in dəstəyi ilə reallaşacaq XI Qəbələ Beynəlxalq Musiqi Festivalı 11 ölkədən musiqiçiləri bir araya gətirəcək.

Festivala Azərbaycan, Rusiya, İsrail, ABŞ, İtaliya, İsveçrə, Ukrayna, Özbəkistan, Litva, Çin və Türkiyədən dirijorlar Fəxrəddin Kərimov, Dmitri Yablonski, Alvise Kasellati, ifaçılar Oksana Yablonskaya, Janna Qandelman, Eduard Vulfson, Anna Koşkina, Janna Miniotas, Boris Andrianov, Sim Helen, İrina Starodub, Mariya Buynosova, Umid İsrailov, Modestas Sedlevicius, Ningvu Du, Doğu Kaptaner, Fırat Semerçioğlu və digərləri qatılacaq.



Festivalın təntənəli açılış mərasimi avqustun 1-də Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində olacaq.

Festival çərçivəsində keçirilən konsertlərdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Tələbə Simfonik Orkestri, "Kiyev virtuozları" simfonik orkestri, "Clarte" klarnet kvarteti, "Trio Mirakulum" (Türkiyə) çıxış edəcək.

Həmçinin Azərbaycandan xalq artistləri Murad Adıgözəlzadə, Yeganə Axundova, Ülviyyə Hacıbəyova, əməkdar artistlər Nərgiz Kərimova, Rəna Rəhimova, beynəlxalq müsabiqələr laureatları Cavad Tağızadə, Ceyla Seyidova, Toğrul Hüseynli, Nicat Salmanov, Taleh Yahyayev, Mahir Tağızadə, Fəqan Həsənli, Natavan Həsənova, Nərmin Nəcəfli və digər ifaçılar tamaşaçıların zövqünü oxşayacaq.

Festivalda dünya şöhrətli pianoçu Oksana Yablonskayanın 80 illiyinə həsr olunmuş "Oksana Yablonskaya və məktəbi" adlı konsert keçiriləcək.

Hər il olduğu kimi, bu il də festival çərçivəsində "Muğam axşamı" təşkil olunacaq. Muğamsevərlər "Naz-nazı" muğam qrupunun çıxışından zövq alacaq.

# "JARA 2019" musiqi festivalı başlandı

### Dörd gün ərzində konsertlərdə 200-dən çox müğənni səhnəyə çıxacaq

*əvvəli səh. 1-də*

Mətbuat konfransında Filipp Kirkorova gələn il festival çərçivəsində yaradıcılıq gecəsinin keçirilməsi təklif olunub və müğənni buna razılığını bildirib.

Qeyd olunub ki, gələn il "JARA" festivalının Dubayda ikinci dəfə, eləcə də Almaniya, ABŞ və Belarusda keçirilməsi nəzərdə tutulur.

Gələn il festivalın 5 yaşı münasibətilə beynəlxalq gün də elan olunacaq. Burada rusiyalı müğənnilərlə yanaşı, Türkiyə, Amerika və digər ölkələri təmsil edən musiqiçilərin iştirakı ilə təqdimatlar keçiriləcək, konsert təşkil olunacaq.

Qeyd edək ki, 4-cü "JARA" Beynəlxalq Musiqi Festivalının konsertləri iyulun 25-dən 28-dək ənənəvi məkanda – Bakıda, Xəzər sahilindəki "Sea Breeze" istirahət mərkəzində keçiriləcək.



İlk konsertdə Filipp Kirkorov, Loboda, Emin, Monatik, Nikolay Baskov, Qriqori Leps, Valeriya, Ani Lorak, A-studio, Vera Brejneva və başqaları səhnəyə çıxıblar.

İyulun 26-da "Lyube" musiqi qrupunun 30 illik yubiley gecəsi keçiriləcək. Həmin gün səhnədə "İvanuşki International", "Fabrika", "Qorod 312", Alyona Apina, Nataşa Korolyova, "Otpetnıye moşenniki" və "Na-Na" qrupu çıxış edəcək.

Yeri gəlmişkən, festivala bilet alan tamaşaçıların daşınması üçün ekspres marşrut xətti təşkil olunub.

Bakı Nəqliyyat Agentliyindən bildirilib ki, marşrut xətti üzrə avtobuslar Səməd Vurğun bağı (Dilarə Əliyeva küçəsindən) Nardaran qəsəbəsi, "Sea Breeze" istirahət mərkəzinə hərəkət edəcəklər. Ekspres xətt üzrə avtobuslar saat 15:45-dən fəaliyyət göstərəcək, eyni zamanda, tədbir bitdikdən sonra tamaşaçıların əks istiqamətə daşınması təmin ediləcək.

# Muzey əşyalarının mühafizə portalına həsr olunan yekun təqdimat-treninq





İyulun 25-də Bakıda "Muzey əşyalarının daimi mühafizə portalı"nın yenidən işlənilmiş proqram təminatının istifadə qaydalarına dair təqdimat-treninqlərin sonuncu mərhələsi keçirilib.

Mədəniyyət Nazirliyinin sifarişi ilə yaradılmış portal üzrə treninqlərin bundan öncəki mərhələləri 20-21 iyun tarixində Qəbələdə (İsmayıllı, Şəki, Kürdəmir, Sumqayıt və Xaçmaz regional mədəniyyət idarələri), 15-16 iyulda Şəmkirdə (Ağstafa, Şəmkir, Gəncə, Bərdə, Ağcabədi regional mədəniyyət idarələri), iyulun 22-23-də isə Lənkəran şəhərində (Ağdaş, Sabirabad, Biləsuvar, Masallı, Lənkəran regional mədəniyyət idarələri) keçirilib. Təlimlərə regional mədəniyyət idarələrinin tabeliyində olan Heydər Əliyev mərkəzlərinin və muzeylərin direktor, baş mühafiz və portalla işləyən operatorları qatılıb.

Yekun təqdimat Bakı şəhəri üzrə Heydər Əliyev mərkəzlərinin və muzeylərin direktor və aidiyyəti əməkdaşları üçün keçirilib.

Tədbirdə nazirliyin Muzey işi və mədəni sərvətlərə nəzarət şöbəsinin müdiri Azadə Hüseynova, şöbənin sektor müdiri Yaşar Hüseynli, İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdir müavini Qabil Abbasov, portalın yenilənmiş proqram təminatını hazırlamış "AdZone" şirkətinin mütəxəssisləri iştirak ediblər.

Təqdimat-treninq zamanı portalın yenidən işlənilmiş proqram təminatının istifadə qaydalarına dair təqdimat nümayiş olunub, o cümlədən portalla bilavasitə məşğul olan operatorlara muzey fondlarında qorunub saxlanılan eksponatların portala daxil edilməsi qaydası göstərilib, suallar cavablandırılıb. Proqram təminatının təkmilləşdirilməsinə dair rəy və təkliflər "AdZone" şirkətinə çatdırılıb.

"Muzey sərvətlərinin daimi mühafizə portalı" üçün vahid idarətmə sisteminin yaradılması məqsədilə muzeylər tərəfindən toplanılmış və sistemləşdirilmiş məlumat bazasının idarə olunması, yenilənməsi və internet məkanında təqdim olunması üçün proqramın gələcəkdə digər məlumat bazaları və portallar ilə inteqrasiya olunacağı proqnozlaşdırılır.

# "Təhsil avtobusu – Nəsimi" yay məktəbi

"Nəsimi ili"nə həsr olunmuş daha bir layihəyə start verilib. Təhsil Nazirliyinin "Azərbaycan üçün öyrət" təhsil proqramı çərçivəsində "Təhsil avtobusu – Nəsimi" yay məktəbinin iştirakçıları bölgələrə səfərə çıxıblar.

Layihənin ilk dayanacağı Astara rayonu olub. İyulun 25-də burada keçirilən mərasimdə layihə heyəti, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin, "Kapital Bank"ın, rayon İcra Hakimiyyətinin nümayəndələri iştirak ediblər.

Çıxışlarda qeyd olunub ki, Təhsil avtobusu – Nəsimi" yay məktəbinin məqsədi şagirdlərin şəxsi inkişafına stimul vermək, həyata fərqli baxış və dünyagörüşünün



formalaşmasına təsir etmək, onların dərsə marağının artmasına şərait yaratmaq və Nəsimi yaradıcılığını tanıtmaqdır.

Diqqətə çatdırılıb ki, iyulun 29-dək davam edəcək yay məktəbinin səyahət marşrutu Astara, Cəbrayıl (Cocuq Mərcanlı), Qusar, Qazax və Şamaxı rayonlarını əhatə edəcək. Bölgələrdəki kənd məktəblərinin akademik göstəriciləri zəif və orta olan şagirdlər təlimçilər tərəfindən keçiriləcək peşə, natiqlik, incəsənət, fərdi inkişaf təlimləri və intellektual yarışlarda iştirak edəcəklər.

Astarada keçirilən yay məktəbində rayonun bir sıra qəsəbə və kənd məktəblərinin orta göstəriciləri zəif və olan VI-IX sinif şagirdləri iştirak ediblər. Təlimlərdə və oyunlarda fəal iştirak edən şagirdlərə sertifikatlar təqdim olunub.

Təhsil avtobusu – Nəsimi" yay məktəbinin növbəti ünvanı Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi olacaq.

# Mədəniyyət Nazirliyində Qırğızıstan nümayəndə heyəti ilə görüş

## Nurlan Kalıbekov: "Eyni kökdən olan xalqlar qloballaşma dövründə bir-birini daha çox dəstəkləməlidir"



Mədəniyyət naziri Əbülfəs Qarayev iyulun 24-də Qırğızıstan Milli Yazıçılar Birliyinin sədri Nurlan Kalıbekovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan nazir Azərbaycanla Qırğızıstan arasındakı mədəni əlaqələrdən söz açıb. Ölkəmizdə mədəniyyətə və ədəbiyyata dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışan Əbülfəs Qarayev bu dəstəyin yaradıcı insanlara böyük stimul verdiyini qeyd edib. Bildirib ki, dövlətin dəstəyi ilə Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrinin əsərləri ölkəmizdə və xaricdə nəşr olunaraq təbliğ edilir.

Nazir vurğulayıb ki, Azərbaycanda təşkil edilən beynəlxalq kitab sərgiləri, xarici yazıçıların əsərlərinin tərcüməsi, eləcə də TÜRKSOY-la birgə bu istiqamətdə həyata keçirilən layihələr türkdilli xalqların ümumi ədəbi inkişafına töhfələr verir.

Qırğızıstan Milli Yazıçılar Birliyinin sədri Nurlan Kalıbekov öz növbəsində səmimi qəbula görə təşəkkür edərək bildirib ki, Azərbaycanda olduqları müddətdə mədəniyyətimizlə yaxından tanış olmaq imkanı qazanıblar. Xalqımızın milli mədəni irsinə bağlılığı onları heyran edib.

Qonaq təmsil etdiyi qurumla Azərbaycan Yazıçılar Birliyi arasında əlaqələrin inkişafından danışaraq deyib ki, yaxın günlərdə iki yaradıcı ittifaq arasında memorandumun imzalanması nəzərdə tutulub. Dillərimizin və mədəniyyətlərimizin yaxınlığından danışan Nurlan Kalıbekov ölkəmizə səfərinin məhsuldar keçdiyini diqqətə çatdırıb. Bildirib ki, səfər zamanı Bakıda "Azərbaycan-qırğız ədəbi əlaqələri dünən, bu gün və sabah" mövzusunda dəyirmi masa təşkil edilib və tədbirdə "Gənc qırğız şeiri antologiyası"nın təqdimatı keçirilib.

Qırğızıstan Milli Yazıçılar Birliyinin sədri vurğulayıb ki, eyni kökdən olan xalqlar daha sıx əməkdaşlıq etməli, qloballaşma dövründə bir-birini daha çox dəstəkləməlidirlər.

Görüşdə Qırğız-Türk Manas Universitetinin (Bişkek) əməkdaşı, Dünya Gənc Türk Yazarlar Birliyinin qırğız təmsilçisi Altınbek İsmail, "Manas" radiosu mədəniyyət proqramının redaktoru, şair Jıldızbek Tursunbayev, şair-tərcüməçilər Nuriza Ömürbayeva, Narsulu Qurqubayeva, Azərbaycan Milli Məclisinin üzvü Cavanşir Feyziyev, Bakıda Atatürk Mərkəzinin şöbə müdiri, şair-publisist Əkbər Qoşalı, nazirliyin əməkdaşları iştirak ediblər.

## "Milli mətbuat – milli düşüncə"

İyulun 24-də Bakıda Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə Milli Mətbuat Gününə həsr olunmuş "Milli mətbuat – milli düşüncə" mövzusunda konfrans keçirilib.

Fondun icraçı direktorunun müavini Rəfi Qurbanov media nümayəndələrini peşə bayramı münasibətilə təbrik edərək bildirib ki, milli-mənəvi dəyərlərimizin qorunması, təbliği və gələcək nəsillərə çatdırılmasında mətbuatımızın rolu danılmazdır. "Əkinçi" qəzetindən başlayan söz və ifadə azadlığı bizə "Füyuzat"la dəyərlərimizə hörməti, "Molla Nəsrəddin"lə sağlam tənqidi öyrətdi. Bu mənada milli mətbuatın yaranması milli kimliyimizin formalaşmasında xüsusi rola malikdir.

Tədbirdə Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə və başqa çıxış edənlər Azərbaycanda müstəqil mətbuatın inkişafından bəhs ediblər.

Sonda Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən elan olunmuş "Milli mətbuat – milli düşüncə" mövzusunda məqalə müsabiqəsinin qalibləri mükafatlandırılıb.

## "Təbəssüm" rəqs kollektivi Türkiyədə festivala qatılıb



Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Xətai rayon Mədəniyyət Mərkəzinin "Təbəssüm" rəqs kollektivi Türkiyənin Rize şəhərində keçirilmiş "İnternational Kaçkar Bicycle and Culture Arts Festival"ında iştirak edib.

Festival çərçivəsində rəqs kollektivi Rize şəhərində, Hopa, Pazar və Ardeşen bölgələrində çıxış edib.

Festivalın sonuncu günü "Təbəssüm" rəqs kollektivi fəal iştirakına görə təltif olunub.

# Milli Məkan Məlumatları İnfrastrukturu çevik qərar qəbuletmə işinə töhfə verəcək

Elektron Hökumət yeni "myGov" portalı ilə vətəndaşlara xidmət edir. Milli Məkan Məlumatları İnfrastrukturu bütün dövlət orqanlarının "data"ya əsaslanan çevik qərar qəbuletmə məzmununun tətbiqinə töhfə verəcək.



Bu barədə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev iyulun 25-də Bakıda keçirilən "Azərbaycanda Milli Məkan Məlumatları İnfrastrukturunun əsasları" adlı konfransda deyib.

Diqqətə çatdırılıb ki, Milli Məkan Məlumatları İnfrastrukturu bütün dövlət orqanlarında "data"ya əsaslanaraq vətəndaşlara xidmət göstərəcək: "Bu vacib infrastrukturdur. Dövlət xidmətlərinin həm vətəndaşlara çatdırılması istiqamətində, həm də iqtisadi-sosial layihələrin keçirilməsi istiqamətində bu layihə fayda verən, vacib sistem olacaq".

Vurğulanıb ki, Milli Məkan Məlumatları İnfrastrukturu rəqəmsal hökumətin zəruri komponentlərindən biridir və bu sistemin tez bir zamanda qurulması vacibdir.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi milli məkan məlumatlarının ilkin mənbəyini və onları formalaşdıran aidiyyəti dövlət qurumlarının siyahısını müəyyən edir: "Artıq Milli Məkan qaydaları ilə bağlı qərar qəbul olunub. Bununla bağlı Əmlak Məsələləri Dövlət Komitəsində ciddi işlər həyata keçirilir".

Qeyd edək ki, "Azərbaycanda Milli Məkan Məlumatları İnfrastrukturunun əsasları" Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən təşkil olunub.

Tədbirdə Milli Məkan Məlumatları İnfrastrukturunun yaradılması işlərini həyata keçirən İsrailin "Ofek Aerial Photography" şirkətinin nümayəndələri də iştirak ediblər.

Konfransın məqsədi Milli Məkan Məlumatları İnfrastrukturunun formalaşdırılması, idarə olunması, aktuallığının təmin edilməsi, inteqrasiyası və mühafizəsi ilə bağlı işləri daha da təkmilləşdirmək, sistemin yaradılması ilə əlaqədar qarşılıqlı əməkdaşlığı genişləndirmək olub.

# Azərbaycan kəhrizləri tarixi irs abidələridir

Azərbaycanda ən qədim zamanlarda kəhrizlər quraq zonalarda ən etibarlı su mənbəyi kimi istifadə edilib. Dünyanın 40-dan çox ölkəsində su probleminin həllində kəhrizlərdən istifadə olunur.

Zəngin yeraltı su ehtiyatı olan ölkəmizdə kəhriz sistemi hələ də elmi-təcrübi cəhətdən dəqiq tədqiq edilməyib. Bu gün həmin kəhrizlərin öyrənilməsinə, sıradan çıxmaqda olan bəzi qədim kəhrizlərin bərpasına ciddi ehtiyac var. Bu həm iqtisadi, həm də tarixi baxımdan böyük əhəmiyyət kəsb edir.

Bu fikirləri Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Əlövsət Quliyev bildirib.

Alim deyib ki, 1938-ci ildə Azərbaycanda 885 kəhriz rəsmi dövlət qeydiyyatına alınıb, onlardan suvarma mənbəyi kimi istifadə olunub. Bu kəhrizlərin il ərzindəki həcmi 420 milyon kubmetrdir. Bu gün həmin suyun 20-25 faizindən istifadə edilir.

O qeyd edib ki, tarixi mənbələrdə Azərbaycanda 1500-ə qədər kəhrizin olması haqqında məlumatlar var: "Tarixi məlumatlara nəzər salsaq görərik ki, baş vermiş müharibələr nəticəsində kəhrizlər dağıdılıb, sonra yenidən bərpa olunaraq həyata qaytarılıb. 1970-ci illərdə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Nazirliyində Kəhrizlər şöbəsi var idi. Lakin ötən əsrin 90-cı illərinin əvvəllərində baş verən məlum hadisələrdən sonra bu sahə diqqətdən kənarda qaldı".

Əlövsət Quliyev xatırladıb ki, 2002-ci ilin avqust ayında Vayxır su anbarının tikintisi ilə əlaqədar Naxçıvan şəhərində keçirilən müşavirədə ümummilli lider Heydər Əliyev kəhrizlərin bərpasının, qorunmasının vacibliyini bildirib. Ulu öndərin tövsiyələrinə uyğun olaraq, Naxçıvanda Meliorasiya və Su Təsərrüfatı Komitəsinin nəzdində Kəhrizlər idarəsi yaradılıb, 300-dən çox kəhriz bərpa edilib. 2016-cı ildən başlayaraq, Azərbaycanın bir sıra rayonlarında kəhrizlər tədqiq edilib. Məlum olub ki, kəhriz sistemlərinin bir qismi torpaq islahatı vaxtı meliorativ qurğu kimi nəzərə alınmadığından dağıntıya məruz qalıb, bir qismi də vətənpərvər adamların sayəsində qorunaraq bu günə qədər gəlib çıxıb.

Alim bildirib ki, bu gün müxtəlif qrantlar hesabına kəhrizlər bəzən naşı adamlar tərəfindən bərpa adı altında kosmetik təmir edilir. Aidiyyəti qurumlar tərəfindən belə halların qarşısı alınmalıdır. Kəhrizlərimiz konkret bir dövlət orqanının balansına verilməli, onlar bərpa edilməli və qorunmalıdır: "Kəhrizlərin bərpası, onlardan səmərəli istifadə edilməsi ən aktual məsələlərdən biridir. İnanıram ki, dövlətimiz bu tarixi mirasın sıradan çıxmasına imkan verməyəcək".

Bu gün mədəni və təbii irs abidələri UNESCO-nun siyahısına salınır. Alim bildirib ki, Azərbaycan kəhrizləri gələcəkdə dövlətimizin diqqət və qayğısı sayəsində Dünya irs siyahısına salına bilər.

## "Şairə ithaf"

### Nəsiminin yaradıcılığına həsr olunmuş rəsm müsabiqəsi davam edir

Mədəniyyət Nazirliyinin Azərbaycan Rəssamlar İttifaqı ilə birlikdə keçirdiyi, böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin yaradıcılığına həsr olunmuş "Şairə ithaf" adlı respublika rəsm müsabiqəsi davam edir.

Müsabiqədə Rəssamlar İttifaqının üzvləri, o cümlədən respublikada fəaliyyət göstərən ali və orta ixtisas məktəblərinin magistr tələbələri iştirak edə bilərlər. Təqdim olunacaq əsərlərə Mədəniyyət Nazirliyi və Rəssamlar İttifaqının mütəxəssislərindən və tanınmış rəssamlardan ibarət komissiya tərəfindən baxılacaq. Qaliblərə heykəltəraşlıq, rəngkarlıq, qrafika (o cümlədən kitab qrafikası), dekorativ-tətbiqi sənət nominasiyaları üzrə mükafat və diplomlar təqdim olunacaq.

Bağlı zərfin içində iştirakçı rəssamın soyadı, adı, atasının adı, təvəllüdü, telefon nömrələri, əsərin adı, ölçüsü və texnikası qeyd olunmalıdır. Təhvil verilən hər bir əsərin arxa tərəfində, "deviz", "şifr" qeyd edilməlidir. Kitab qrafikası üzrə əsərlər A3 və A4 formatında tərtibatsız-çərçivəsiz təqdim edilməlidir.

Əsərlər oktyabrın 10-dan 15-dək Azərbaycan Dövlət Rəsm Qalereyasına (Bakı şəhəri, Neftçilər prospekti, 49, Muzey Mərkəzinin 1-ci mərtəbəsində 11-ci otaq, əlaqə telefonları: +994 12 493 93 85, 493 86 33) təqdim olunmalıdır.

## Qubada keçiriləcək Regional Mətbəx Festivalına hazırlıq yekunlaşıb

İyulun 27-28-də Quba şəhərində keçiriləcək Regional Mətbəx Festivalına hazırlıq işləri yekunlaşıb. Festival Xaçmaz Regional Mədəniyyət İdarəsi və Quba Destinasiya Menecmenti Təşkilatı tərəfindən, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin tərəfdaşlığı, Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi və Quba Rayon İcra Hakimiyyətinin dəstəyi ilə reallaşacaq.




Festivalın təşkil olunacağı Quba şəhərinin Nizami parkında mətbəx nümunələrinin təqdim olunacağı köşklər qurulub, məlumatlandırma və tanıtım lövhələri asılıb. Festivalda yerli və regional icma nümayəndələrinin, yerli istehsalçılar və turizm sahəsi peşəkarlarının məhsulları nümayiş olunacaq.

Festivalda "Mətbəx nümunələri", "Dadma və məhsul ərazisi" və "Yerli kənd təsərrüfatı məhsullarının satışı" adlı zonalar təşkil olunacaq. İstehsalçılar və turizm sahəsinin peşəkarları öz məhsullarını satış məqsədilə nümayiş etdirəcəklər.

Bundan əlavə, qastronomik, mədəni, tarixi və əyləncəli proqramların keçiriləcəyi "Əsas səhnə" zonası fəaliyyət göstərəcək, uşaqlar üçün isə "Əyləncə parkı" zonası qurulacaq.

Tədbir zamanı muğam və estrada ifaçılarının iştirakı ilə konsert proqramları da təqdim olunacaq. Festivalın son günündə "Şahdağ-Quba" hotelində məşhur aşpazlar tərəfindən regional qida-iaşə sənayesinin aşpaz və mütəxəssisləri üçün ustad dərsi keçiriləcək.

## "Küçə sənətçiləri" layihəsinin təqdimatı

İyulun 26-da Dövlət Turizm Agentliyinin tabeliyindəki Bakı Turizm İnformasiya Mərkəzinin "Küçə sənətçiləri" adlı layihəsinin təqdimatı keçiriləcək.

Dövlət qurumlarının dəstək verdiyi layihəyə əsasən ilkin mərhələdə küçə sənətçiləri arasında seçim aparılacaq. Seçim mərhələsini uğurla adlayan sənətçilərə Bakı Turizm İnformasiya Mərkəzi tərəfindən Bakının Nizami küçəsində, İçərişəhərdə və Dənizkənarı Bulvar ərazisində çıxış etmələri üçün rəylər veriləcək.

Layihə çərçivəsində aktyorlara, musiqiçilərə, rəssamlara, rəqqaslara və digər yaradıcı şəxslərə öz istedadlarını nümayiş etdirməyə lazımi şərait yaradılacaq.

"Küçə sənətçiləri" layihəsinin əhəmiyyəti turistlərin bu cür tədbirlərə xüsusi maraq göstərməsinə, həmçinin qonşu ölkələrdə də tətbiq edilən bu növ əyləncəli küçə şoularının müsbət nəticələr verməsinə əsaslanır.

## Böhran zamanı mədəni irsin qorunması

Gürcüstanın paytaxtı Tbilisidə Beynəlxalq Muzeylər Şurası – İCOM-un təşkilatçılığı ilə "Böhran zamanı mədəni irsin qorunması" mövzusunda təlim keçirilib.

Təlimdə AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunun müdiri Sevinc Nəsirova iştirak edib. Treninqdə təbii fəlakət və ya müharibə zamanı muzeylərdə mühafizə olunan mədəni irs nümunələrinin qorunması və xilası ilə bağlı zəruri tədbirlərdən bəhs olunub.

Sonda iştirakçılara sertifikatlar verilib.

## "Sevgiylə paylaşaq"

Sumqayıt Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə Sumqayıt şəhər S.Vurğun adına Mərkəzi Kitabxananın Uşaq şöbəsi Qızıl Aypara Cəmiyyətinin (QAC) Sumqayıt təşkilatı ilə birgə "Sevgiylə paylaşaq" adlı xeyriyyə tədbiri keçirib.

Sumqayıtın 70, kitabxananın Uşaq şöbəsinin 50 illiyi ilə əlaqədar keçirilən tədbirdə QAC Sumqayıt təşkilatının sədri Mətanət Məhərrəmova, yazıçı-ssenarist Hafiz İmamnəzərli, kitabxananın Uşaq şöbəsinin müdiri Yeganə Hüseynova çıxış ediblər.

Bildirilib ki, xeyirxahlıq, mərhəmət, humanizm insanı daxilən saflaşdıraraq başqalarının gözündə ucaldan, insanlığın zinətinə çevirən ali dəyərlərdən sayılır. Tədbirin sonunda imkansız ailələrə sovqat təqdim olunub.

## ƏSA teatrı Lənkəranda tamaşa göstərib

Azərbaycanın əlilliyi olan və olmayan aktyorlardan ibarət inklüziv ƏSA teatrı Lənkəranda qastrol səfərində olub.



Kollektivin N.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrının səhnəsində göstərdiyi "Adamlar və siçanlar" tamaşası anşlaqla keçib. Teatr mövsümü qastrol səfəri ilə yekunlaşdırıb.

Amerika yazıçısı Con Steynbekin əsərinin motivləri əsasında hazırlanan tamaşa insanlara mərhəmət, alicənab hisslər aşılamaqla yanaşı, tamaşaçıları böyük insanlığa, mənəvi dəyərlərə səsləyir. Tamaşanın quruluşçu rejissoru Nihad Qulamzadədir.

ƏSA teatrı gələcəkdə digər bölgələrə də səfər etməyi planlaşdırır.

# “Vətən! Ordu! Şərəf!” adlı rəsm sərgisi açılıb

İyulun 24-də Gədəbəydə “Vətən! Ordu! Şərəf!” adlı vətənpərvərlik mövzusunda rəsm sərgisi açılıb. Sərgi Milli Yaylaq Festivalı, həmçinin Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin və Şəmkir Regional Mədəniyyət İdarəsinin birgə təşəbbüsü ilə keçirilən gənc mədəniyyət işçilərinin birinci yay düşərgəsi çərçivəsində təşkil edilib.



Sərginin açılış mərasimində çıxış edənlər gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasını, onların istedadının üzə çıxarılması və dəstəklənməsini, ölkəmizdə təsviri sənətin inkişaf etdirilməsi və təbliğ olunmasının sərginin hədəfləri arasında yer aldığını vurğulayıblar. Həmçinin “Səni vətən çağırır”, “Mədəniyyət və silahlı qüvvələr” və “Əsgər salamı” adlı məruzələr dinlənilib.

Tədbirin bədii hissəsində Gədəbəy Aşıq Məktəbinin şagirdləri çıxış ediblər.

Sonra sərgiyə baxış olub və ən yaxşı əsərlərin müəllifləri mükafatlandırılıb.

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda İordaniya səfiri ilə görüş



Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva iyulun 23-də İordaniya Haşimilər Krallığının Azərbaycandakı səfiri Nassar İbrahim Məhəmməd Əl-Habaşneh ilə görüşüb.

Fondda keçirilən görüşdə Günay Əfəndiyeva rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətləri, gələcək planları barədə məlumat verib, türk dünyası mədəniyyətinin, eləcə də ərəb mədəniyyətinin bəşər sivilizasiyasına verdiyi töhfələrdən danışıb. Bu mədəniyyətlərin bir araya gətirilməsinin, onların sahib olduğu dəyərlərin beynəlxalq aləmdə tanıdılmasının vacibliyindən bəhs edilib.

İordaniya səfiri türkdilli xalqların tarixi-mədəni irsinin qorunması, eləcə də onların həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində belə bir fondun təsis edilməsinin əhəmiyyətini vurğulayaraq, təşkilatın fəaliyyətini yüksək qiymətləndirib. Bu xüsusda səfir ərəb və türk dünyasına məxsus mədəni irsin təşviq edilməsinin vacibliyini dilə gətirərək, İordaniyanın Azərbaycan və təşkilata digər üzv dövlətlərlə mədəniyyət sahəsində əlaqələrin gücləndirilməsinə önəm verdiyini bildirib.

Sonda İordaniya Haşimilər Krallığı ilə Fond arasında əməkdaşlığın inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb, birgə layihələrin icra ediləcəyinə əminlik ifadə olunub.

# “Mənim yay tətilim” rəsm müsabiqəsi davam edir

Xətai Sənət Mərkəzinin elan etdiyi “Mənim yay tətilim 2019” adlı respublika uşaq rəsm müsabiqəsi davam edir.

Mərkəzin direktoru Zahid Əvəzov bildirib ki, müsabiqə Təhsil Nazirliyinin 3 nömrəli Uşaq-gənclər inkişaf mərkəzi, Azərbaycan Televiziya və Radio Verilişləri QSC, Xətai Rayon İcra Hakimiyyəti, Azərbaycan Rəssamlar İttifaqının dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə reallaşır.

“Nəsimi ili” çərçivəsində təşkil olunan müsabiqə məktəblilərin yay istirahətlərinin zövqlü keçməsi və tətil ərzində diqqətini çəkən hadisələri öz düşüncələri ilə tabloda əks etdirmək bacarıqlarını inkişaf etdirmək məqsədilə keçirilir.

Müsabiqədə iştirak etmək üçün məlumatı www.xsm.az saytında almaq olar. Qeydiyyat oktyabr ayının 15-dək aparılacaq.

Seçim iki yaş kateqoriyası (12 yaşa qədər, 12-17 yaş arası) üzrə keçirilir. Sərgi Xətai Sənət Mərkəzində açılacaq.

# Fotoqraflarımız beynəlxalq müsabiqədə uğur qazanıblar

Gürcüstan Fotoqraflar Assosiasiyasının Beynəlxalq Foto Sənəti Federasiyasının – FİAP-ın himayəsi ilə keçirdiyi “Georgian Drag 2019” beynəlxalq fotomüsabiqəsinə yekun vurulub. Müsabiqədə Azərbaycan fotoqrafları uğurla iştirak ediblər.

Azərbaycan Fotoqraflar Birliyinin (AFB) bədii işlər üzrə sədr müavini, münsiflər heyətinin üzvü kimi tədbirdə iştirak edən Rauf Umud bildirib ki, müsabiqəyə 52 ölkədən 355 fotoqraf qatılıb. 4 bölmə üzrə 4733 foto əsərlərindən ilk turdan keçmiş 157 foto mükafat qazanıb.

AFB-nin üzvləri Şahin Sərkərov qızıl, Fərqanə Qasımlı gümüş, Aydın Mehdiyev və Nadejda Cavad bürünc medala, birliyin fəxri üzvü, Rusiya Fotoqraflar İttifaqının üzvü Svetlana Kamkova diploma layiq görülüblər.

Mükafatlandırma və qaliblərin yekun sərgisi sentyabr ayında keçiriləcək.



# “Milli mədəni brend – müasir tendensiyalar”

## Gədəbəydə beynəlxalq konfrans təşkil olunub

Gədəbəydə Milli Yaylaq Festivalı çərçivəsində iyulun 25-də “Milli mədəni brend – müasir tendensiyalar” adlı beynəlxalq konfrans təşkil olunub.

Konfrans Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi (MEMİM) və Şəmkir Regional Mədəniyyət İdarəsinin birgə təşəbbüsü ilə gənc mədəniyyət işçilərinin “I Beynəlxalq yay düşərgəsi” çərçivəsində reallaşıb.

Mərkəzin direktoru Asif Usubəliyev tədbiri açaraq qeyd edib ki, mədəniyyət ölkənin siyasəti, təbliğatı və ideologiyasıdır. İnnovativ mədəni brendlər artdıqca ölkənin tanınması da genişlənəcək. Ancaq milli dəyərlərimizi brendə çevirərək tariximizi və mədəniyyətimizi təbliğ etmiş olacağıq.

AMEA-nın Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov çıxışında vurğulayıb ki, ancaq öz mədəniyyətimizi qoruyaraq bəşəri mədəniyyətlə birləşmək olar.



Konfransda Türkiyə İnegöl Bələdiyyəsinin Xalq rəqsləri ansamblının müəllimi Fatih Oral “Türk milli mədəniyyətinin təbliğində gənclərin rolu”, Qazaxıstan Milli İncəsənət Universitetinin professoru, sənətşünaslıq namizədi Rauşan Maldibayeva “Mədəniyyətdə müasir tendensiyalar”, Rusiyanın D.Lixaçov adına Mədəni və Təbii İrs üzrə Elmi Tədqiqat İnstitutunun elmi işçisi Natalya Kryukova “Mədəni xidmətlər” adlı məruzələrlə çıxış ediblər.

Mərkəzin əməkdaşları Aygün Balabəyovanın “Brendləşən mədəniyyət nümunələri”, Leyla Qlıcovanın “Müasir geyimlərdə milli üslubun təcəssümü” mövzularında məruzələri də dinlənilib. Məruzəçilər çıxışlarında milli irsdə azərbaycançılıq ideyasından bəhs ediblər.

Sonda Əməkdar müəllim Yusif Vəliyevin MEMİM-in metodiki şurasının qərarına əsasən çap olunmuş nağara və fortepiano aləti üzrə kitabının Gədəbəy Aşıq Məktəbində təqdimatı keçirilib.

# “Fərəh odası”ndan bizim də səsimiz gələcək

Avqustun 1-də İtaliyanın paytaxtı Romada 35-ci “Tagiliacozzo” beynəlxalq klassik musiqi festivalının açılışı olacaq. Açılış mərasimində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının aparıcı solisti, Əməkdar artist Afaq Abbasova da çıxış edəcək.




Artıq bir neçə teatr mövsümüdür ki, teatr İtaliyanın ölkəmizdəki səfirliyi ilə işgüzar münasibət qurub. Bu münasibətdən doğulan maraqlı əməkdaşlıq layihələri Azərbaycan klassik musiqi sevənlərinə çağdaş İtaliya musiqiçiləri ilə tanışlıq və böyük sənətlə ünsiyyət bəxş edir.

Ötən il Bakıda ilk dəfə keçirilmiş İtaliya opera günlərində qonaq olmuş dirijor və vokalçılar səfirlik ilə teatr arasında bu işgüzar münasibəti başa çatan sənət mövsümündə davam etdirdilər. Tanınmış dirijor Yakobo Sipari di Peskasseroli ötən ilin mayında qəzetimizə müsahibəsində demişdi ki, Azərbaycan musiqisinə heyrandır və bizim teatrda eşitdiyi bir çox vokalçıların ifasını çox bəyənir. Azərbaycan teatrındakı gözəl və güclü səs sahiblərini İtaliyada tanıtmaq niyyətinə düşdüyünü deyən maestro vədinə əməl edib. “Tagiliacozzo” beynəlxalq klassik musiqi festivalının açılış mərasimində teatrımızın güclü sopranosu Afaq Abbasovanın da səsi eşidiləcək.

Maestro di Peskasserolinin dirijorluq edəcəyi konsertdə Lüdviq van Bethovenin 9-cu re minor simfoniyası ifa olunacaq. Dahi bəstəkarın vəfatından üç il qabaq (1824) bəstələdiyi bu simfoniya onun digər simfoniyalarından fərqlənir. Müəllif bu əsərində ilk dəfə alətlərlə yanaşı insan səsindən istifadə edib. Belə ki, Fridrix Şillerin poeması mətn olaraq simfoniyanın dördüncü hissəsinə daxil edilib və bu hissədə soprano, kontralto, bariton, tenor və qarışıq xor çıxış edir. Bəstəkarın eşitmə qabiliyyətini tam itirdikdən sonra bəstələdiyi bu əsər Bethoven yaradıcılığının şah əsərlərindən hesab edilir. Hətta simfoniyanın bir hissəsi olan «Ode an die Freude»in, yəni «Sevinc odası»nın bir hissəsi Avropa İttifaqının himni kimi də məşhurdur.

Klassik vokal musiqisinin beşiyi sayılan Romada nüfuzlu konsertdə Azərbaycan vokalçısının belə məşhur əsərin ifaçılarından biri olaraq səhnəyə çıxması çox fərəhli hal və vokal məktəbimizin uğurudur. Üstəlik, Afaq Abbasova bu festivalda çıxış edəcək ilk azərbaycanlı vokalçı olacaq.

Son illər gözəl tenorlarımız – Yusif Eyvazovu, Azər Rzazadəni alqışlayan İtaliyanı yeni bir gözəl səslə tanışlıq gözləyir.

**Gülcahan MİRMƏMMƏD**

# Uşaqlarımız ekran-efirdə nəyi izləsinlər?


*əvvəli səh. 1-də*


Qeyd edək ki, ötən əsrin 90-cı illərinə kimi televiziyada məktəblilər üçün əxlaqi-tərbiyəvi, maarifləndirici əhəmiyyətli verilişlər üstünlük təşkil edirdi. Bu gün isə bu verilişlər efir saatının cüzi hissəsini təşkil edir. Yaxud da elə bir saatda yayımlanır ki, həmin saatda bu verilişlərin proqrama salınması faydasız olur. Məsələn, bəzi kanallarda yay tətili günlərində səhər saat 7:30-da uşaqlar üçün nağıl-film nümayiş olunur. Bəllidir ki, səhərin bu çağında əksər uşaqlar şirin yuxuda olurlar.

Uşaqların dünyagörüşlərinin, intellektual səviyyələrinin artırılması ilə bağlı müəyyən verilişlər isə alqışlanmalıdır. Bu qəbildən verilişlərə məktəblilər tərəfindən böyük tələbat var.

Dövlət Film Fondunun əməkdaşı, Əməkdar mədəniyyət işçisi Yusif Şeyxov bildirir ki, bu gün uşaqlar üçün ən çox nümayiş olunan film “Sehrli xalat”dır. Bu filmin texniki keyfiyyəti yaxşıdır: “Vaxtilə “Azərbaycanfilm” kinostudiyasında lentə alınan filmlərin bir çoxunu Dövlət Film Fondunda bərpa ediblər. Uşaqlar üçün filmlərin əksəriyyəti SSRİ-nin Mərkəzi Televiziyasının sifarişi ilə çəkildiyindən rus dilindədir. “Mən nəğmə qoşuram”, “Asif, Vasif, Ağasif”, “Şir evdən getdi” və s. filmlər dublyaj edilərək təqdim olunub. Telekanallarda dublyaj şöbələri fəaliyyət göstərir və onlar bu sahədə digər filmləri dublyaj etsəydilər pis olmazdı.

Onu da qeyd edim ki, bu il Azərbaycan animasiya kinosunun 50 yaşı tamam olur. Köhnə və yeni cizgi filmlərinin nümayişi bu mənada yerinə düşər. Digər tərəfdən, bu gün nağıl-filmlər üçün ssenari qıtlığı mövcuddur. Bizim zəngin folklorumuz var. Nağılları kino dramaturgiyasına gətirmək bir az çətin olsa da, zəruridir. Bu işin müasir formaları tapılmalıdır. Bu mənada “Cırtdan və sehrli xalat” cizgi filmini misal çəkə bilərik. Telekanallarımız köhnə cizgi filmlərinin nümayişində maraqlı deyillər.



Bərpa olunmuş bu filmlərin bəzilərinin texniki vəziyyəti heç də pis deyil”.

Uşaq yazarı Sevinc Nuruqızı deyir ki, hazırda uşaq ədəbiyyatı bu kateqoriyadan televiziya verilişlərindən irəlidədir: “Yazarlarımız, tirajı az olsa da, yazdıqlarını nəşr etdirib uşaqların ixtiyarına verirlər. Ədəbiyyatdan fərqli olaraq, uşaq filmləri ilə bağlı vəziyyət qənaətbəxş deyil. Çünki bu sahə çox vəsait tələb edir. Şəxsi vəsait hesabına da çətindir. Nəinki məktəblilərin, yenicə dil açan körpələrimizin də Azərbaycan dilində cizgi filmi və bədii filmlərə çox böyük ehtiyacı var. Vaxtilə bu məsələ ilə əlaqədar sosial şəbəkədə çağırış etmişdim. Televiziyalara gəlincə, əfsus ki, bu günə kimi müasir uşaq filmi və serialı çəkilməyib. Bir yazar olaraq mənə də heç vaxt ssenari üçün müraciət olunmayıb. 5-12 yaşarası maraqlı ssenarilərim var ki, bu da uşaqlarımızın inkişafına, az da olsa, xidmət edərsə, çox şad olaram.

Əlbəttə, müasir dövrün uşaqları smartfonlara, planşetlərə daha çox meyillidirlər. Bununla bərabər, biz yenə də televiziya vasitəsilə teatr tamaşalarını nümayiş etdirə bilərik. Müasir günümüzdə uşaqların zövqünü oxşamaq üçün çoxsaylı layihələr həyata keçirmək mümkündür. Yetər ki, istək, fədakarlıq və bir də maliyyə olsun”.

Milli Televiziya və Radio Şurasının üzvü, Əməkdar mədəniyyət işçisi Telli Pənahqızı qeyd edir ki, bu gün milli cizgi filmlərinin azlığı üzündən uşaqlar xarici telekanallara baxmalı olurlar. Bu filmlər də bizim mentalitetə uyğun deyil: “Yolda, küçədə görürsən ki, uşaqlar çox aqressiv davranırlar. Onlar dostluq edə bilmir, özlərinə qapanırlar. Oyuncaqlarını, yeməklərini yoldaşları ilə paylaşmaq istəmirlər. Uşaqlar bütün neqativ halları, zorakılığı baxdıqları həmin o xarici kanallardakı filmlərdən öyrənirlər”.

“MZ” prodakşn şirkətinin direktoru Üzlüfət Qasımova deyir ki, əsasən özəl telekanallar bu sahədə qısamüddətli layihələr təqdim etməklə kifayətlənirlər. Bunun da səbəbi sponsorların belə verilişlərə marağının az olmasıdır. Biz yeddi ildir Gənclər və İdman Nazirliyinin dəstəyi ilə “Müasir Azərbaycan gənci” verilişini hazırlayırıq. Bu gün təkcə gənclər üçün deyil, gəncliyə qədərki dövr üçün də televiziya verilişləri və filmlər haqqında düşünməliyik. Ana dilimizdə təhsildən kənar proqramlar və psixoloji verilişlər azlıq təşkil edir. Nədən başlamalı? Yeni bir nağıl qəhrəmanına ehtiyac var. Onun milli olması o qədər də önəmli deyil. Əsas özünüdərk, özünü inkişaf istiqamətində uşaqlara yardım edə biləcək bir qəhrəman olsun.

Bəli, bu gün uşaqların milli ruhda tərbiyəsi üçün çoxsaylı layihələr reallaşdırmaq mümkündür. Filmlərdən başlayaraq, televiziya verilişlərinə qədər. Hazırda əsasən Azərbaycan Televiziyasında və İctimai Televiziyada uşaqlar üçün davamlı layihələrə rast gəlmək olur. Ölkəmizdə cəmi bir uşaq televiziya kanalı fəaliyyət göstərir – “ARB Günəş”. 2015-ci ildən uşaqların görüşünə gələn telekanalın efir proqramına müxtəlif cizgi filmləri ilə yanaşı 10-a yaxın uşaq verilişi də daxildir.

**Lalə AZƏRİ**

# Kitabxanada balacalar üçün “nağıl saatı”

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Nizami rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Uşaq şöbəsi balacalara “nağıl saatı” təşkil edib.

Baş idarədən bildirilib ki, “nağıl saatı”nın keçirilməsinin əsas məqsədi uşaqların kiçik yaşlarından kitabxanaya gəlmələrinə maraq yaratmaq və onları mütaliəyə həvəsləndirməkdir.

Söylənilən nağıllar uşaqlar tərəfindən böyük maraqla dinlənilib.

# “Milyonçu qadın”la görüşmək üçün...

*əvvəli səh. 1-də*

Söhbət S.Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının artıq başa çatan mövsümdəki son premyeralarından birindən – Bernard Şounun “Milyonçu qadın” komediyasından gedir. İncə, incə olduğu qədər də tikanlı ingilis yumorunun dünya dramaturgiyasındakı ən yaxşı nümunələrinin müəllifi Bernard Şounun adının teatrın afişasında olması elə həmin yaradıcı heyətin nə qədər iddialı olmasından xəbər verir. Şouya müraciət etmisənsə, deməli, tamaşanda şou elementləri olsa da, klassik ingilis yumoru hüdudlarını aşa bilməzsən! Bernard Şounun ismi teatrın cari repertuarına, ya da quruluşçu rejissor, Xalq artisti Aleksandr Şarovskinin yaradıcılıq bioqrafiyasına düşsün deyə, bu əsərə müraciət edərdilər, ya yox, - bunu deyə bilmərik. Amma əsərin Xalq artisti Natalya Şarovskayanın yuvarlaq rəqəm-





li yubileyi münasibətilə seçilib hazırlandığı dəqiqdir: bəli, tanınmış aktrisa Natalya Şarovskaya budəfəki qəhrəmanından azca yaşlı olsa da, aktrisanın səhnədə bol-bol xərclədiyi enerji, göstərdiyi sənət coşğusu və ehtiraslı oyun tərzi göstərdi ki, elə “Milyonçu qadın” olmaq ona yaraşır, milyonçu qadına yaraşan həyat yoldaşı tapmaq uğrunda savaşmağa dəyər.

Əsərdən xəbəri olmayan oxucu düşünə bilər ki, milyonçu qadın həyat yoldaşı tapmaq uğrunda niyə savaşsın ki?! Əksinə, qoy namizədlər savaşsınlar ki… Sadəcə, məsələ bir qədər başqa cürdür. Milyonçu atasının yeganə varisi, ərköyün qızı, üstəlik, insanlara, Sabirin məşhur “pulsuz kişi, insanlığı asanmı sanırsan?” soruşan qəhrəmanı kimi, yuxarıdan-aşağı baxan Epifaniya Onizanti di Parerqa atasının bir şərtini yerinə yetirməlidir ki, 30 milyon funt-sterlinqə sahib olsun. Atasının vəsiyyətindəki tələb isə belədir: onun qızı ilə evlənmək istəyən oğlan gələcək həyat yoldaşından aldığı 150 funtu yarım il ərzində 50 minə çatdırmalıdır. Necə? Təbii ki, gəlir gətirən sahəyə yatırım etməklə! Əgər adaxlı bu şərti yerinə yetirərsə, Epifaniya ona ərə gedə bilər! Düzdür, onun adaxlısı, hündürboy, yaraşıqlı, boks və tennis üzrə çempion Alaster Fitsfassenden (Yuri Omelçenko) bu sınaqdan uğurla keçsə də, nikah heç birinə uğur gətirməyib: arvadının şıltaq xasiyyətinə tablaşa bilmədiyi üçün meylini “Corabı cırıq Polli” ləqəbli Patrisiya Smitə (Marina Litvinenko) salıb. Bu romantik və incəqəlbli qız onun kobud zarafatına da tablaşır, ilməsi qaçmış corabdan qurtulmağı isə Alasterə vəfa dolu sevgi bəsləməsi üçün kifayətdir. Milyonçu qadının sayəsində qayğısız həyat keçirməyə hazırlaşan Adrian Blenderblend (Əməkdar artist Salman Bayramov) Efipaniyanın yalnız məşuqu ola bilər. Adrian azmış kimi, işləri yaxşı gedən vəkil Culius Saqamor (Oleq Əmirbəyov) öz varlı müştərisinin tələblərinə cavab verən adaxlı tapmaq vədilə ondan öz xidmətinin müqabilində pul qoparmağa cəhd edir.

Tamaşa bu ruhda – şıltaq Epifaniyanın öz biznes maraqlarını unutmadan şəxsi həyatının ən vacib problemini həll etmək uğrunda çabalarını göstərməklə davam edir. İştirakçılar səhnəyə çıxdıqca, Epifaniyanın hökmü (həm də hikkəsi) ilə onların başlarına gələn macəralar bir-birini əvəzləyir. Rejissorun verdiyi çevik mizanlar Əməkdar mədəniyyət işçisi Aleksandr Fyodorovun səhnə tərtibatını tamamlayan, amma müəyyən məqamlarda bəsit komikslərə yaxınlaşdıran videoinstalyasiyalar (müəllif – Cavid İmamverdiyev) fonunda oynanılır. Bernard Şounun təxminən 90 il öncə qələmə aldığı pyesin qəhrəmanlarının əynindəki o dövrə xas geyim fasonları (geyim üzrə rəssam – Əməkdar mədəniyyət işçisi Olqa Abbasova), bir də 30 milyon funt-sterlinqin çox böyük məbləğ kimi təqdim edilməsi olmasa, tamaşaçı klassik ingilis komediyasına baxdığını belə zənn etməyə bilər. Səbəbi? “Milyonçu qadın”da coşan ehtiraslar o qədər yaxın və anlaşılan olduğundan…

Digər tərəfdən, qəhrəmanların isimləri də proqrama baxmadan yadda qalmır. Bəlkə elə buna görə Bernard Şou pyesdə cərəyan edən hadisələrin məcrasını dəyişəcək qəhrəmanına xüsusi bir ad qoymayıb. Onu elə Doktor kimi səhnəyə çıxarıb? Müəllifə görə, Epifaniya əsərin sonuna yaxın bir kasıb kişiyə vurulmalıdır ki, həm onun həyata, ətrafındakı insanlara münasibəti dəyişsin, həm də komediya öz janrının qaydalarına uyğun bitsin, yəni məhəbbət qalib gəlsin!

Günlərin bir günü Epifaniya əslən Hindistandan olan Doktora (Əməkdar artist Fuad Osmanov) aşiq olur. Məsələ ondadır ki, hindli Epifaniyanın mərhum atası kimi, Doktorun da mərhum anasının potensial gəlinin qarşısında dağdan ağır şərti var: gəlin iki həftə 15 şillinqlə dolanmağı bacarmalıdır, üstəlik, həmişə də ərinin əlinə baxmadan yaşamağa qadir olmalıdır. Taleyin istehzası, məhəbbətin qüdrəti Epifaniyanı atasının vəsiyyətini qulaqardına vurmağa vadar edir.

Beləcə, bu tamaşada da məhəbbət qalib gəlir. Elə yubileyi münasibətilə şəninə tamaşa qurulan aktrisa Natalya Şarovskayanın özü kimi! Əsrin ekvator xəttini on il öncə keçmiş, lakin səhnə plastikası və səhnə cazibəsi ilə Epifaniyadan da gənc görünən, tərəfdaşlarını da öz çevik ifa ritminə tabe etdirən aktrisanın salon dolusu izləyicisi, qulaq batıracaq alqışları varsa, deməli, səhnəyə sənətçi sevgisi qalib gəlib. “Milyonçu qadın” yubiley münasibətilə hazırlansa da, onun teatrın repertuarında möhkəmlənəcəyinə əminik. Axı, məhəbbətin qələbəsini hiss etmək kimi, seyr etmək də xoşdur. Bir də ki, aramızda milyonçu qadınla qarşılaşmaq istəyən az deyil axı… Elə bizim də sözümüz onlaradır: gələn mövsüm yolunuzu Rus Dram Teatrından salın…

**Gülcahan MİRMƏMMƏD**

# “Salnaməfilm” studiyasında yeni film çəkilir



“Salnaməfilm” studiyasında Azərbaycanın Milli Qəhrəmanları silsiləsindən sənədli filmlərin çəkilişləri davam edir. “Mirpaşa” adlı növbəti film Azərbaycanın Milli Qəhrəmanı Hidayət Rüstəmov haqqındadır. Filmin çəkilişləri Ağdam, Bərdə və Bakıda aparılıb.

Filmin rejissoru Emin Əfəndiyev, ssenari müəllifi Ramil Ələkbərov, operatoru Rüfət Süleymanov, icraçı prodüseri Kamil Məmmədov, prodüseri Nazim Hüseynovdur.

Film tezliklə tamaşaçıların ixtiyarına veriləcək.

**LALƏ**

# Xalq teatrının 10 yaşı qeyd edilib

Naxçıvan Muxtar Respublikası Babək rayonunun Xalq teatrı 10 yaşını qeyd edib.



Tədbirdə muxtar respublikanın mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, 2006-cı ildə Cəlil Məmmədquluzadənin “Kamança” pyesi ilə səhnəyə çıxan Babək rayon Mədəniyyət sarayının dram dərnəyinin üzvləri tədricən peşəkarlıq səviyyələrini artırıblar. 2009-cu ildə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarı ilə dram dərnəyinə “Xalq teatrı” adı verilib.

Vurğulanıb ki, teatr 2015-ci ildə keçirilən xalq teatrlarının muxtar respublika festivalında birinci yerə layiq görülüb. 2017-ci ildə keçirilən növbəti festivalda Hüseynbala Mirələmovun “Xəcalət” əsəri əsasında hazırlanmış səhnə əsəri “Ən aktual mövzulu tamaşa” nominasiyasında birinci dərəcəli diplomla təltif olunub.

Nazir kollektivə bundan sonrakı fəaliyyətində yeni yaradıcılıq uğurları arzulayıb.

Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov çıxış edərək kollektivin mədəni-kütləvi tədbirlərdə fəal iştirakından bəhs edib. Bildirib ki, teatr 10 illik fəaliyyəti dövründə hazırladığı tamaşalarla rayon sakinlərinin estetik zövqünün formalaşmasında, insanların asudə vaxtlarının səmərəli təşkilində əhəmiyyətli rol oynayıb.

Mərasimdə daha sonra rayon Mədəniyyət sarayının foyesində Xalq teatrının hazırladığı tamaşalardan çəkilmiş şəkillərdən ibarət sərgiyə baxış keçirilib.

# Söz musiqidən düşmüşkən

Dünən və bu gün olduğu kimi, sabah da insanlığın əsas ünsiyyət dili musiqi olacaq. Sərhəd tanımayan, irqi, dini mənsubiyyətə, dilə bölməyən musiqi. Amma baxır necə musiqi. Yaxud nə qədər “çoxdilli” musiqi. Əsas məsələ də budur. Görəsən, bizim bu gün yaranan musiqilər də başqaları ilə ünsiyyətimizdə körpü funksiyasını qoruya, öz ənənələrinə xas yüksək nüfuz imkanlarını saxlaya biləcəkmi? Bu və digər məsələlərlə bağlı tanınmış bəstəkar, Əməkdar artist Vüqar Camalzadə ilə söhbət etdik.



**- Son illərin dinləyici nəsli üçün daha çox mahnı bəstəkarı kimi xarakterizə olunursunuz. Buna münasibətiniz necədir?**

- Əslində, ciddi musiqi janrında işləmək istəyim həmişə olub. İstər simfonik musiqi, istərsə də kamera musiqisi və kino musiqisi mənə çox yaxındır. Amma bəzi dönəmlər, yəni özünütəsdiq məqamında mütləq elə bir şeylər etməlisən ki, geniş dinləyici kütləsi səni tanısın, sevsin. Bunun ən yaxşı yolu mahnı janrından keçir. Çünki simfonik, irihəcmli musiqilərə yanaşma çətin olur. Amma mahnı ilə daha tez tanına bilərsən. Ona görə də bir sıra cəhdlərimdən sonra qərara gəldim ki, mahnı janrına müraciət edim. Ümumilikdə uşaqlıqdan mahnılar yazıram. Amma özümü sənətdə təsdiq etmək, kütləvi tamaşaçı sevgisi qazanmaq və əlbəttə, maddi təminatım üçün sevgi və həvəslə bu janrda yazmağa başladım. O mahnılarda da tərzimi, yolumu yaratmağa çalışdım. Böyük musiqi əsərləri üçün nəzərdə tutduğum simfonizmi, bir çox alətlərdə işləməyi mahnılarda tətbiq etdim. Ümumiyyətlə, həmişə eksperimentlər eləməyə çalışmışam. Mahnı yazanda onun qaralama, tam hazır olmayan versiyasını sənət dostlarıma göstərib fikirlərini almışam. Bir çox mahnılarımı dinləyib yaxşı fikirlər səsləndirsələr də, kütləvi sevilməyəcəyini deyiblər. Amma həmin mahnılar geniş tamaşaçı tərəfindən rəğbətlə qarşılanıb. Elə mahnılarım var 14-15 ildir ki, populyardır, sevilir və dinlənilir. Şükürlər olsun ki, bu mərhələ də keçdi və indi, istədiyim kimi, irihəcmli musiqilərlə məşğulam.

**- Azərbaycanın bir çox görkəmli bəstəkarları mahnı janrına müraciət ediblər və yazdıqları mahnılar illərdir ki, sevilərək dinlənilir. Hazırda isə elə mahnılar var ki, ifaçısını sürətlə tanıdır və sadəcə qazanca hesablanır. Bu kimi işlər sizin də yaradıcılığınızda olubmu?**

- Olub, inkar edə bilmərəm. Amma bunların heç birində də yola vermək və ya sifarişdir deyə yazmaq istəyim olmayıb. Sadəcə, müğənni hansısa bir mahnıma oxşar, yəni eksperiment etmədən, hazır şablon üzərindən nümunə istəyib və mən də onu yazmışam. Bu, sırf kommersiya məqsədi və gündəmdə qalmaq üçün görülən işlərdir. Artıq 3-4 ildir ki, mahnı janrı ilə məşğul olmuram.

**- Vüqar müəllim, tez populyarlaşan və peşəkar yazılmış mahnı ayrı-seçkiliyi etsək, uzunömürlülük və bəstəkara iş baxımından hansı daha gərəklidir?**

- Peşəkar mahnı elə yaxşı mahnıdır. Ola bilər ki, peşəkar kanonlardan istifadə edilərək yazılan mahnı olsun, amma dinləyicilərə o qədər də xoş olmasın və populyarlıq qazanmasın. Konservatoriyada təhsil aldığım 6 ildə rəhmətlik müəllimim İsmayıl Hacıbəyov mənə mahnı janrında yazmağı qadağan elədi. Səbəbi isə sadə idi. Mahnı şirin janrdır və bir melodiya bəstəkarı bütünlükdə məşğul edə bilir. Nəticədə zamanla işləmək tələb edən ciddi musiqidən uzaqlaşırsan.

Bir çox peşəkar bəstəkarlarımız olub ki, mahnı janrına müraciət etsələr də, uğurlu alınmayıb. Çünki mahnı janrı özünəməxsus yanaşma tələb edir. Mahnı ruh halıdır, ona qulaq asan insanda istər lirik, istər şən, yəni fərqli əhval yaranır. Yaxşı mahnı uzun müddət qalırsa, deməli, orada müəyyən peşəkar parametrlərə riayət olunub. Təbii ki, bu, bəstəkar və xalq mahnısı qruplaşmasının hər ikisinə aiddir. Çünki başqa halda uzunömürlü ola bilməz. Amma peşəkar baxımdan qaydalarında hazırlanmış, kanonik parametrləri yerində olan mahnılar da var ki, insanlar tərəfindən sevilmir.

**- Kütləvi baxımdan 15 il öncənin dinləyici zövqünü bu gün ilə müqayisə etdikdə bundan sonrakı 15 il üçün nə düşünürsünüz? Hazırda bu mənzərə ilə bağlı fikir yürüdənlər dinləyicini zövqsüzlükdə, bəsit və bayağı melodiyaya meyillənməkdə qınayırlar...**

- Təbii ki, musiqinin modelyeri bəstəkardır. Onun təqdim etdiyi musiqi həm kütləvi, həm də peşəkar olmalıdır. Bunun ən yaxşı nümunəsi dahi Üzeyir bəy Hacıbəylidir. O, istənilən bir musiqi janrında kütləviliyə, yəni insanların eşitmək istədiyinə yönəlib, onların dilində danışıb, anlayacaqlarını təqdim edib. Amma həm də peşəkar tələblərə tam cavab verərək. Danışacağımız musiqi dili xalqın dili olmalıdır, onlar bizi anlamalıdır, musiqimizdən qaçmamalıdır. Bu mənada kimlərsə “Biz daha ağıllı və zövqlüyük, kütlə anlamırsa, dinləmirsə, deməli, musiqi zövqü yoxdur” kimi hissə qapılmamalıdır.

**- İstər xalq musiqisi, istərsə də klassik musiqi sahəsində bəstəkarlıq, peşəkar musiqiçilər baxımından kasadlığımız olmayıb. Belədirsə, niyə zövqün korlanması problemi ilə üzüzəyik?**

- Məsələ yüksək zövqə sahib olub, ona xitab eləməkdir. O demək deyil ki, kütləvi dinləyiciyə hesablanan mahnı aşağı səviyyəli olmalıdır. Zövqsüzlüyə gəlincə, burada əsas iş dinləyicinin üzərinə düşür. Çünki o, istənilən halda seçmək, imtina etmək haqqına malikdir. Hazırkı dövrdə Azərbaycan mədəniyyəti, peşəkar musiqisi bütünlükdə türk dünyasında ən yüksək pillədədir. Belə bir bəstəkarlıq məktəbi nümunəsi var və onun nümayəndələri ənənəni davam etdirəcəklər. Dinləyicini də hazırlamaq lazımdır. Yaxşı mənada musiqi tərbiyəsi ilə məşğul olmalıyıq. Dinləyici istənilən halda ciddi musiqiyə hazırlanmalıdır, həm də aramla. Bu isə bilavasitə bəstəkarların və onların işlərini təbliğ edən kütləvi mənbələrin işidir.

**- Bir neçə teatr-konsert müəssisəsində çalışırsınız. Maraqlıdır, dramaturji material, yaxud da xoreoqrafiyaya musiqinin təsiri nə dərəcədə genişdir və burada əsas məqam nədir?**

- Dövlət Rəqs Ansamblının musiqi rəhbəri, Kukla və Yuğ teatrlarının musiqi hissə müdiri, Milli Konservatoriyanın dosentiyəm. Film, teatr və rəqs musiqiləri çox fərqlidir və daha çox tətbiqi musiqilərdir. Təbii ki, əsərin bütün xarakterini, emosiyalarını özündə daşımalıdır və qabarıq görünməlidir. Bəstəkar üçün o musiqini yazmaq daha çətindir. Rejissor, baletmeysterlə iş, edirəm-göstərirəm faktoru ilə bağlı sənətdir və sən tələb olunanı icra edib ideyaya uyğun təqdim etməlisən. Əks halda tamaşaçı bir şeyə baxıb başqa bir şeyi dinləyəcək. Əsas odur ki, uyğunluq yaransın. Bunu rəqs ansamblı ilə işlədikdən sonra o qədər dərindən anladım ki, artıq teatr və kino üçün musiqi yazmaq mənim üçün daha asan oldu.

**- Uşaq mahnıları da ağrılı mövzulardandır. Niyə uşaq mahnıları yazmırsınız?**

- Uşaqlar üçün mahnı yazmaq çox çətindir. Həm də uşaq mahnısı və ya bəstəkarı kimi qruplaşdırma da doğru deyil. Digər tərəfdən, uşaq mahnısı dedikdə çalarsız, sadəcə, not düzümlü melodiyalar nəzərdə tutulmamalıdır. Xüsusən indiki uşaqları dinləyici kimi formalaşdırmaq çox çətindir. Çünki böyüklərdən daha tələbkardırlar.

**- Bayaq artıq mahnı yazmadığınızı dediniz. Bildiyim qədərilə beynəlxalq musiqi layihələrində çalışırsınız. “Dədə Qorqud” baleti üzərində də işləyirsiniz. Niyə məhz bu mövzu?**

- Simfonik variasiyaların, violonçel və fortepiano üçün sonata, üçhissəli simfoniya, kamança və simfonik orkestr üçün konsert, müzikllər, operetta işləmişəm. Hazırda Xalq yazıçısı Anarın librettosu əsasında “Dədə Qorqud” baleti üzərində işləyirəm. İkipərdəli balet inşallah, qısa zamanda tamaşaçıların ixtiyarına veriləcək. Layihə üzərində yüksək peşəkar heyət çalışır. Baletin quruluşçu rəssamı Ağaəli İbrahimov, geyim rəssamı Tahir Tahirov, baletmeysteri Eldar Əliyevdir. Mədəniyyət Nazirliyi və TÜRKSOY tərəfindən təsdiqlənən bu layihə türkdilli ölkələrdə təqdim olunacaq.

**- Baleti nə kimi musiqi elementlərinə görə fərqləndirirsiniz?**

- Məqsədim qədim türk intonasiyaları, türk ritmlərinin, musiqi alətlərinin simfonik orkestrlə, Avropa musiqi tərzi ilə sintezini yaratmaqdır. Burada unudulan, yaxud çox az istifadə olunan türk xalqlarına xas alətlərin də səslənməsini etmişəm. Baletə tamaşa edən hər kəs orada ümumtürk musiqi dilini dinləyib, tamaşa edəcək.

**HƏMİDƏ**

№54 (1639)
26 iyul 2019
www.medeniyyet.az

## Ərtoğrol Cavidin 100 illiyi ilə bağlı respublika elmi konfransı keçiriləcək



Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Hüseyn Cavidin ev-muzeyinin birgə təşkilatçılığı ilə oktyabrın 22-də Ərtoğrol Cavidin 100 illik yubileyinə həsr olunan respublika elmi konfransı keçiriləcək.

AMEA-dan bildirilib ki, "Ərtoğrol Cavid 100" mövzusunda konfransda iştirak etmək istəyən tədqiqatçılar sentyabrın 15-dək elmi məruzələrinin tam mətnlərini huseinjavid@gmail.com elektron ünvanına göndərə bilərlər.

Konfransdan sonra məruzələr toplusunun nəşri nəzərdə tutulur.

## Muzey fonduna yeni arxeoloji materiallar daxil edilib

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Milli Azərbaycan Tarixi Muzeyinin fonduna yeni arxeoloji materiallar daxil edilib.

Muzeydən bildiriblər ki, materiallar Şəmkirdən tapılmış saxsı qablar və Əhəməni sarayından tapılmış Pasarqad tipli sütun altlığıdır.

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, ekspedisiya rəhbəri Emil İsgəndərov tərəfindən muzeyə verilən materiallar e.ə. VI-IV əsrlərə aiddir və onlar arxeologiya tariximizin tədqiqi baxımından əhəmiyyətlidir.

# Arxeoloji ekspedisiya Qəbələdə tədqiqatlar aparır

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Antik dövr arxeologiyası şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Ceyhun Eminlinin rəhbərlik etdiyi ekspedisiya Qəbələnin Səlbir və Antik şəhər yerində tədqiqat aparır.

İnstitutdan bildiriblər ki, qədim Qəbələnin Səlbir yaşayış yerində sahəsi 400 kvadratmetrdən artıq olan iri tikili kompleksi tədqiq olunur. Kompleks 2017-ci ildə ekspedisiya tərəfindən aşkarlanıb. Builki tədqiqatlar zamanı həmin kompleksə aid bir binanın ikimərtəbəli olması müəyyən edilib. Binanın tikintisində çaydaşı və bişmiş kərpicdən geniş istifadə olunub. Binanın alt mərtəbəsinə kərpic pilləkənlərlə düşdükdən sonra dəhlizlər vasitəsilə müxtəlif istiqamətlərdə otaqlar müəyyən edilib. Tikili kompleksinə dəhlizlər, yardımçı otaqlar, dairəvi hovuz, təsərrüfat quyusu, təndir daxildir. Binanın dağılmış hissələri içərisində xeyli sayda müxtəlif rəngli şüşələrin



tapılması vaxtilə orada şəbəkəli pəncərələr olduğundan xəbər verir. Tədqiqatlar zamanı xeyli sayda saxsı məmulatı, inşaat detalları, metal əşyalar aşkarlanıb.

Tikili kompleksi XII-XIV əsrlər arasındakı dövrə aid edilir. Daha sonra bu kompleks tərk edilib və zaman keçdikcə kütləvi dağıntıya məruz qalıb. XV əsrdən sonra həmin hissədə kiçik qəbiristanlıq salınıb ki, qəbirlərin qazılması nəticəsində binanın bəzi divarları və bünövrə yerləri daha da dağılıb.

Paralel olaraq Səlbir yaşayış yerində Azərbaycan-Koreya beynəlxalq arxeoloji ekspedisiyası da fəaliyyət göstərir. Birgə tədqiqatlar Səlbirin mərkəzi hissəsində su anbarı ehtimal edilən çökəklik yerində davam edir.

İkiillik fasilədən sonra Antik və ilk orta əsrlər Qəbələ arxeoloji ekspedisiyası Antik şəhər yeri ehtimal olunan Çaqqallı sahəsində də tədqiqatları bərpa edib. Antik şəhər yerində mərhum arxeoloq, professor İlyas Babayevin rəhbərliyi ilə aşkarlanmış dulusçuluq emalatxanası ətrafında qazıntılar hazırda davam etdirilir. Eramızdan əvvəl II əsrə aid olan dulusçuluq emalatxanasının ətrafı, dulus kürələri tədqiqata cəlb olunub.

Arxeoloji çöl-tədqiqat işləri SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının maliyyə dəstəyi ilə həyata keçirilir.

# Başqırd xalqının ünlü şairi

Başqırdların məşhur el qəhrəmanı və şairi Salavat Yulayevdən başlayaraq çarizmin müstəmləkə siyasəti ilə barışmayan başqırd xalqının söz ustadları kəndbəkənd, şəhərbəşəhər gəzərək qəhrəmanlıq dastanları söyləyib, millətin dərd-kədərini dilə gətiriblər, soydaşlarını milli oyanışa səsləyiblər. Onların könüllərə səpdiyi toxumlar çox keçmir cücərir. Başqırdlar içərisindən mübariz qələm sahibləri yetişir. Onlardan biri ünlü şair Məcid Qafuri olub.

Məcid Nurqəni oğlu Qafuri 1880-ci il avqust ayının 1-də Başqırdıstanın Yelem-Karan kəndində ziyalı ailədə dünyaya göz açır. İlk olaraq atasının açdığı molla məktəbində dərsə gedir. Ərəb-fars dillərini öyrənir. Həmçinin xalq yaradıcılığı ilə tanış olur. Sonra Üteş kəndindəki məktəbdə təhsilini davam etdirir. Ancaq tale gənc Məcidin üzünə gülmür. Əvvəl atası, az sonra isə anası dünyasını dəyişir. Bu itkilərdən sarsılsa da, təhsilindən ayrılmır. 1898-ci ildə Orenburq vilayətinin Troitsk şəhərində fəaliyyət göstərən və dünyəvi elmlərin tədris olunduğu Zeynulla İşanın mədrəsəsində təhsilini davam etdirməyə başlayır.

Folklorşünas, publisist Əli Şamil Məcid Qafuri ilə bağlı araşdırmasında yazır ki, o, mədrəsədə oxuya-oxuya Troitskdə zəngin tatar və başqırd ailələrinin, eləcə də yay tətilləri günlərində köçəri qazaxların uşaqlarına dərs deyir. Həm də bədii yaradıcılıqla məşğul olur. İlk qələm təcrübəsi olan "İşanın şagirdlərinə" adlı şeirini də 1902-ci ildə burada yazır.

Qəribliyin və ehtiyacın doğurduğu ağrı-acılar Məcidin yaradıcılığına təsirsiz ötüşmür. "Dilənçiliklə keçən ömür" adlı ilk hekayəsini yazır. 1904-cü ildə Kazana gəlir, tatar alimi və maarifçisi Qəyyum Nəsirovla, başqırd yazıçısı Məhəmməd Səlim Umudbayev və Abdulla Tukayla tanış olur. Lakin o, burada da çox qala bilmir. 1906-cı ildə Ufaya gedir. "Qaliyyə" mədrəsəsində təhsilini davam etdirir. Burada "Sibir dəmir yolu və ya millətin vəziyyəti", "Dilənçiliklə keçən ömür" adlı kitablarını çap etdirir.

1905-1907-ci illərdə Rusiyadakı inqilabi hadisələr Məcid Qafuriyə də təsir edir. O, hökumətin yeritdiyi siyasəti kəskin tənqid edir. Şeir və hekayələrində üsyançı fikirlər irəli sürür. Hökumət tətilləri yatırdıqdan sonra inqilab əhval-ruhiyyəsi təbliğ edənləri cəzalandırmağa başlayır. Məcid də məhkəməyə cəlb olunur. "Gənc ömrüm", "Millətə sevgim" şeir kitabları, "Yetim uşaqlar" adlı hekayə kitabı müsadirə edilir. O, vəziyyətin ciddiləşdiyini, onu həbs edəcəklərini gördükdə tatar şairi Mirayaz Uqmasi ilə birlikdə polis nəzarətindən yayınaraq qazax çöllərinə yollanır. Bir müddət köçəri heyvandarlar arasında gizlənirlər.

Ara sakitləşdikdən sonra Məcid Qafuri yenidən Ufaya dönür və təhsilini davam etdirir. Bu zaman artıq o, xalq arasında tanınır, şeir və hekayələri oxucular tərəfindən rəğbətlə qarşılanırdı. Şair bu dövrdə öz şeirlərini "qəlbinin qanıyla" yazır:

*Mən yazıram şeirləri*
*Ürək-bağrım qanı ilə!*
*Savaşıram çoxdan bəri*
*Xalqımın düşmanı ilə!*

Şair millətini azad və xoşbəxt görmək istəyir. İstəyir ki, hamı onun kimi üsyankar, əsaslı dəyişikliklər və inqilab yolunu tutsun. 1917-ci ilin oktyabrında baş verən silahlı çevrilişi böyük ruh yüksəkliyi ilə qarşılayır. Sosializm quruculuğuna həsr etdiyi şeirləri ilə sovetlərin coşqun tərənnümçüsünə çevrilir.



Onun çox böyük pafosla yazdığı "Qəlbimə", "Müstəqillik günləri", "Müstəqillik şərəfinə" kimi şeirləri sovet rəhbərlərinin diqqətini çəkir. Məhz buna görə də 1923-cü ildə Məcid Qafurinin ədəbiyyata gəlişinin 20-ci ildönümü münasibətilə təntənəli yubiley tədbiri keçirilir. Ona Başqırdıstanın Xalq şairi adı verilir.

1924-cü ildə o, tatarca nəşr olunan "Yeni kənd" qəzetində işə düzəlir. Böyük ruh yüksəkliyi ilə yazıb-yaradır. "Qızıl ulduz" dramını qələmə alır. "İşçi" poemasının əsasında tamaşa hazırlanır. Əsər Kazanda Tatar Akademik Teatrında səhnəyə qoyulur. Məcid Qafuri bir çox başqırd xalq qəhrəmanlıq dastanlarını, nağılları və digər folklor nümunələrini toplayır. "Qara üzlər", "Həyat pillələri" adlı povestlərinin mövzusu ədibin vaxtilə gözləri qarşısında baş vermiş həyat hadisələridir.

"Qara üzlər" onun uşaq yaşlarında şahid olduğu faciəvi bir eşqdən bəhs edir. Bir-birlərini sevən Həlimə və Zakirin qarşısına çıxan maneələr sonda onların ölümlərinə səbəb olub. Əsər əsasında daha sonra tamaşa hazırlanır. Uzun müddət tatar və başqırd teatrlarında uğurla oynanılır. "Həyat pillələri" adlı povesti isə Vahid adlı kəndli gəncin həyatından bəhs edir.

Başqırd xalqının gələcəyindən nigaran olan şairin vətənpərvər qəlbi 1934-cü il oktyabrın 28-də dayanır. Ömrünün son illərini yaşadığı mənzili muzeyə çevrilir. Başqırdıstanda elm və mədəniyyət mərkəzinə, o cümlədən Rusiya Elmlər Akademiyası Ufa filialının Dil, Ədəbiyyat və Tarix İnstitutuna, doğulub böyüdüyü rayona ədibin adı verilir. Bu gün Məcid Qafuri başqırd və ortaq türk ədəbiyyatının ünlü nümayəndəsi və böyük ozan-şairi kimi tanınır.

**Savalan FƏRƏCOV**

**Ernest Heminquey 120**

# Amerika ədəbiyyatının təkrarsız dühası

Düşündürücü, insanın həyat amallarını, duyğularını ifadə edən yaradıcılıq nümunələri zaman və məkan hüdudlarına sığmır. Bəzən min illər öncədən çağımıza səslənən fikirləri rahatlıqla qəbul edir, daha doğrusu, ona ehtiyac duyuruq. Elə də olur ki, okeanın o tayından, min kilometrlərlə uzaqda yaranmış bir hekayənin, bir rəsm əsərinin sorağını alıb oxumağa, tamaşa etməyə can atırıq...

Bu yazımızın 120 yaşlı qəhrəmanı – ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1954) Ernest Heminquey də bir əsrə yaxındır uzaq Amerikadan bənzərsiz bədii yaradıcılığı ilə bəşəriyyətə söz, sənət zövqü yaşadır. O, qələmə aldığı nəsr əsərlərilə yanaşı, macəralarla dolu qeyri-adi həyatı ilə də tanınır.

Ernest Miller Heminquey 1899-cu il iyulun 21-də Çikaqo yaxınlığındakı Ouk-Park şəhərciyində doğulub. Ailədə altı uşaqdan ən böyüyü idi. Anası opera müğənnisi, 1928-ci ildə həyatına intiharla son qoyan atası isə həkim olmuşdu.

Orta təhsilini başa vurduqdan sonra hərbi xidmətə getmək istəsə də, gözlərində problem yarandığından arzusuna çatmamışdı. Bir müddət Kanzasda çıxan "Star" qəzetində çalışdıqdan sonra könüllü dəstənin tərkibində Avropaya, Birinci Dünya müharibəsi (1914-1918) cəbhələrinə yollana bilmişdi. Amerika Qırmızı Xaç Cəmiyyətinin sürücüsü kimi müharibənin odalovundan keçmiş, ayağından yaralanmışdı. İgidliyinə görə İtaliyanın iki hərbi medalı ilə təltif olunmuşdu...

***

12 yaşı olanda Ernestin həyatında önəmli bir hadisə baş vermişdi. Babası ona 20 kalibrli təklülə ov tüfəngi bağışlayır. Bu hədiyyə nəvə ilə baba arasında möhkəm dostluğa səbəb olur. Babasının ov haqqında danışdığı maraqlı əhvalatların çoxu sonralar Ernestin əsərlərində öz təsvirini tapırdı. Bir sözlə, babasının ov əhvalatları Ernestin ədəbiyyata olan həvəsini daha da artırır və o, ömrü boyu babasını xoş duyğularla xatırlayırdı...

Gənc Ernest "Manitanın mühakiməsi" adlı ilk hekayəsini də ova həsr etmişdi. Hekayənin qəhrəmanı simasında isə əsasən atasını və bir az da babasını canlandırmışdı. Əsərin qəhrəmanı isə ovda faciəli şəkildə həlak olurdu. Nə qədər qəribə olsa da, Ernestin atası Klarens də hekayədə təsvir edildiyinə oxşar şəkildə intihar etmişdi. Bu hekayə "Skrijal" adlı məktəb jurnalında dərc edilmişdi. Müəllifin "Bütün iş dərinin rəngində idi" adlı ikinci hekayəsi də maraqla qarşılanır. Əsərdə boksun pərdə arxasında aparılan çirkli kommersiya məqsədlərindən danışılırdı.

Çikaqoya qayıtdıqdan sonra Heminquey yazıçı Şervud Andersenlə tanış olur. Yaşlı həmkarının məsləhəti ilə "mənəviyyatsız həyat"dan canını qurtarmaq üçün Parisə yollanır. Amerikanı tərk etməmişdən əvvəl, 1921-ci ildə Elizabet Riçardsonla evlənir. Bu, yazıçının dörd rəsmi evliliyindən birincisi idi.

Parisdə E.Heminquey həmvətəni olan yazıçılarla – Gertruda Stayn, Ezra Paund, Skott Fitsceraldla görüşmüş, "Toronto star" qəzeti üçün yazmağa başlamışdı. Müəllifin "Hekayələr və üç şeir" (1923), "Bizim zəmanəmizdə" (1924) adlı ilk kitabları da Parisdə nəşr olunmuşdu. 1926-cı ildə isə Heminquey ədəbi tənqidin xeyirxahlıqla qarşıladığı "Günəş çıxır" romanını çap etdirdi. Romanda Fransa və İspaniyada yaşayan amerikalıların həyatından bəhs olunurdu. Bu insanların arasında müəllifin özü də vardı. Onlar I Dünya müharibəsindən sonra meydana çıxan "itirilmiş nəsil" nümayəndələri idilər.



"Qadınsız kişilər" (1927) kitabının nəşrindən sonra Heminquey Parisdən ABŞ-a qayıdır. Florida ştatında, Karib dənizi sahilindəki Ki-Vest kurort şəhərciyində məskunlaşır və ikinci romanı "Əlvida, silah"ı yazıb başa çatdırır. Nisbətən sonrakı dövrün məhsulu olan "Zəng kimin üçün çalınır?" (1940) romanı ilə birlikdə "Əlvida, silah" üslub gözəlliyi və ifadəliliyi baxımından Heminqueyin ən yaxşı əsəri sayılır.

***

1930-cu ilin payızında yazıçı avtomobil qəzasına düşür və ağır zədələr alır. O, yarım il müalicə prosesində olsa da, ədəbi yaradıcılığını davam etdirir. 1932-ci ildə Heminquey "Günortadan sonra ölüm" adlı romanını qələmə alır. Bu roman çapdan çıxan kimi bestsellərə çevrilir, yazıçıya Amerika və ondan kənarda yeni şöhrət gətirir. Müəllifin 1933-cü ildə "Qalib heç nə almır" adlı seçilmiş hekayələri çapdan çıxanda artıq ədəbi mühit onu ciddi yazıçı kimi qəbul etmişdi...

Qeyd etdiyimiz kimi, Heminqueyin ruhunda ovçuluğa həmişə böyük həvəs olub. 1933-cü ilin sonlarında Afrikadakı Tanqanika gölü ətrafına ova gedir. 1934-cü ilin yanvarında ağır xəstələnir. Həkimlər ona ovçuluqla məşğul olmağı qadağan edirlər. Afrikaya ov səfəri təəssüratları barədə 1935-ci ildə yazıçının "Afrikanın yaşıl təpələri" adlı kitabı işıq üzü görür.

İspaniyadakı vətəndaş müharibəsi onun bir sıra diqqətəlayiq cəhətlərini üzə çıxarmışdı. O, hərbi jurnalist kimi iç savaşın ən qaynar nöqtələrində olmuşdu. İnsan qəhrəmanlığının və xəyanətinin dəhşətli səhnələrini müşahidə etmişdi. "Beşinci dəstə" (1937) pyesi və "Zəng kimin üçün çalınır?" romanı bu dövrün acı ibrət dərslərinin nəticəsi kimi meydana çıxmışdı.

1950-ci ildə Heminquey "Çayın o tayında, ağacların kölgəsində" romanını oxucuların ixtiyarına verir. İki il sonra "Layf" jurnalında "Qoca və dəniz" povesti dərc edilir. "İnsanı məhv etmək olar, amma məğlub etmək mümkün deyildir" – əsərin əsas leytmotivi müəllifin bu qanadlı ifadəsində öz əksini tapmışdı. İnsanın gücünə, iradəsinə, dözümünə və əbədiyyət sevgisinə ehtiraslı himn olan bu əsər heç kimi laqeyd buraxmadı.

Povestdə dənizdə təkbaşına taleyin hökmünə buraxılan və yaşamaq uğrunda köpək balıqları ilə mübarizə aparan qoca balıqçıdan danışılır. Bu mübarizə o qədər təsirli təsvir edilib ki, oxucu özü də bilmədən ruhən baş verən hadisələrin iştirakçısına çevrilir. "Qoca və dəniz" povesti beynəlxalq aləmdə böyük əks-sədaya səbəb olur. 1953-cü ildə bu povestə görə Heminqueyə beynəlxalq "Pulitser" mükafatı verilir. Bir il sonra isə Heminquey Nobel mükafatına layiq görülür. Bu, yazıçının fəth etdiyi ən yüksək zirvə, yaradıcılığına verilən əvəzsiz töhfə idi. Görkəmli ədib 1956-cı ildə Parisdə olarkən "Riç" hotelinin zirzəmisindən uzun illər qoyub getmiş olduğu çamadanını tapır. Onun içindən əldə etdiyi Paris həyatından bəhs edən gündəliyi əsasında "Həmişə səninlə olan bayram" adlı avtobioqrafik əsərini yazır. Lakin bu kitab onun ölümündən sonra, dördüncü arvadı Meri Velş Heminqueyin səyi nəticəsində 1964-cü ildə işıq üzü görür.

***

E.Heminquey dəfələrlə ölümlə üzləşmiş, lakin hər dəfə xilas ola bilmişdi. Bu qəzalar zamanı, həmçinin I Dünya müharibəsində aldığı yaralar onun sağlamlığına mənfi təsir etmişdi. 1950-ci illərin ortalarından başlayaraq yazıçı depressiyadan və paranoyadan əziyyət çəkməyə başlayır. Ona elə gəlirdi ki, hər yerdə ABŞ-ın Federal Təhqiqat Bürosunun (FTB) əməkdaşları tərəfindən izlənir. Yazıçını elektrik cərəyanı verməklə müalicə etməyə çalışsalar da, 20 seansdan sonra Heminquey yaddaşını itirir. Fikrini sərbəst şəkildə ifadə etmək üçün bir kəlmə belə yaza bilmirdi. Böyük qələm sahibi bu xəstəlikdən xilas yolunu intiharda görürdü. O, bir neçə dəfə bu yola əl atsa da, ailəsi və dostları mane olmuşdular. Bundan sonra Heminqueyi psixoloji klinikaya müalicəyə göndərirlər. Ancaq hər yerdə onun gözünə FTB-nin agentləri görünürdü. İki aydan artıq davam edən müalicədən sonra yazıçını evə buraxmışdılar.

Vəziyyətinin daha da ağırlaşdığını görən ədib bu dəfə onun hər addımını nəzarətdə saxlayan həyat yoldaşı Merinin diqqətindən yayına bilir. 1961-ci ilin 2 iyul tarixində canına qəsd edir.

E.Heminqueyin həyatını tədqiq edən şəxsi bioqrafı F.Yanq məşhur yazıçının bütün həyatının ölüm və intihardan qaçmaqdan ibarət olduğunu qeyd edir. Bildirir ki, bu amil onun yaradıcılığında güclü iz buraxıb.

Dünya ədəbiyyatında hətta ölümü ilə ədəbiyyat yaradan, seçdiyi ölümü belə şöhrəti üçün "işlətməyə" müvəffəq olan nadir yazıçılardan olan Heminquey bu gün də dünyanın ən çox sevilən müəlliflərindəndir. Onu sevməmək, təsirinə düşməmək, sadəcə, mümkünsüzdür.

**Aynurə ƏLİYEVA**

*əvvəli səh. 1-də*

# Şəki Xan sarayı rəsmlərinin estetikası haqqında

Sarayın interyerində yer almış rəsmləri şərh etməzdən əvvəl deyək ki, bütün parametrlərinə görə cəlbedici olan bu sarayın fasadında da onun bədii tutumunu zənginləşdirə biləcək bədii elementlər az deyil. Sqrafitto üsullu və relyefli rəngli üzlüklə işlənmiş həndəsi və nəbati naxışlar, stalaktitli tağlar və rəngarəng yığma şəbəkələr sarayın fasadına xüsusi gözəllik və özünəməxsusluq bəxş etmişdir.

Şəki Xan sarayının interyerlərindəki ən qədim rəsmlər təbii olaraq onun tikildiyi XVIII əsrə aiddir. Sarayın ikinci mərtəbəsinin əsas zalının tavanında rast gəlinən “Abbasqulu” imzasının da həmin rəsmlərin müəllifinə aid olduğu ehtimal olunur. Bir çox mənbələrdə onun həm də sarayın memarı olduğu bildirilir, bəzi müəlliflər, o cümlədən saray barəsində elmi tədqiqat əsəri yazmış Leonid Bretanitski isə bu unikal tikilinin şirazlı Zeynalabdinin təxəyyülünün məhsulu olduğu qənaətindədir.

Zamanın axarında sarayın interyerini bəzəyən təsvirlər müxtəlif səbəblərdən dəyişikliyə məruz qalmışdır. Divar rəsmlərinin binanın istismara verilərkən çəkilmiş ilkin variantı sonradan XIX əsrdə dəfələrlə bərpa edilmiş, bəzi təsvirlər isə tamamilə yenidən işlənilmişdir.





Bu səbəbdən də oradakı rəsmlərin bir neçə rəssam tərəfindən ərsəyə gətirildiyini söyləmək olar. Araşdırmalar burada XVIII əsrdə Abbasqulunun, XIX əsrin ilk qərinəsində (1819-1820) bir avropalı rəssamın, XIX əsrin sonlarında (1895-1896) isə şamaxılı rəssamlar Mirzə Cəfər, Əliqulu və Qurbanəlinin, XX əsrin başlanğıcında (1902) şuşalı Usta Qənbər, onun qardaşı Səfər, oğlu Şükürün çalışdıqlarını təsdiqləyir. İnteryerdə yer almış divar rəsmlərinin müxtəlif yerlərində onların adlarına rast gəlmək mümkündür. Qənaətimizcə, sarayın istifadəyə verildiyi anda onun interyeri süjetli və ornamental kompozisiyalarla örtülsə (birinci mərtəbədə rəsmlərin çəkilməsi nəzərdə tutulan yerlər indiyə qədər qalmaqdadır) də, zamanın axarında – XX əsrdə bir neçə dəfə əsaslı və nisbi bərpalara məruz qalmışdır. Azərbaycan monumental divar rəsmlərinin tədqiqatçısı N.Miklaşevskayanın qənaətincə, bu tərtibat müxtəlif – üç dövrdə ərsəyə gətirilmişdir. Bu, sarayın tikildiyi və erkən rəsmlərin çəkildiyi XVIII əsrin ikinci yarısı, XIX əsrin sonu – XX əsrin lap əvvəlində gerçəkləşən Qarabağ və Şamaxı rəssamlarının fəaliyyəti dövrü, eləcə də XX əsrin ortalarında və ikinci yarısında aparılan yaradıcı-bərpa işlərinin həyata keçirildiyi dövrdür. Erkən rəngkarlığa stalaktitlərdə, tavanlarda və qapılarda, sonrakı dövrdə əlavə olunan rəsmlərə giriş qapılarının və mərtəbələrdəki zalların bəzi yerlərində, ən nəhayət, XX əsrin bəzəklərinə isə yan otaqlarda rast gəlmək mümkündür.

Yeri gəlmişkən deyək ki, sovet dönəmində unikal memarlıq abidəsi kimi hökumətin diqqətində olan Şəki Xan sarayı Moskva və Azərbaycan sənətşünas və bərpaçılarının diqqət mərkəzində olmuşdur. 1939-1940-cı illərdə Dövlət Tretyakov Qalereyasından (Moskva) dəvət olunan Y.A.Dombrovskinin rəhbərlik etdiyi bərpaçılar dəstəsi isə sarayın interyerini bəzəyən ilk rəsmlərin üzə çıxarılmasını həyata keçirmişdir. Burada aparılan rəng qatının və müəyyən yerlərdəki yeni əlavələrin əsaslı təmizlənməsindən sonra XVIII əsrə aid rəsmlərin orijinalları: birinci mərtəbə zalındakı taxta plafonun fraqmentləri, stalaktitləri örtən mavi çalarlı rəsmlərin hissələri, ikinci mərtəbədə məşhur ov (təxminən 50 sm) və döyüş (təxminən 200 sm) motivli frizlərin böyük hissələri və digər rəsmlər üzə çıxarılmışdır. Aparılan işlər nəticəsində XVIII əsrdən XX əsrə kimi müxtəlif dövrlərə aid rəsmləri öyrənmək mümkün olmuşdur.

Saraydakı divar rəsmlərinin müəlliflərinin hamısının adını müəyyən etmək mümkün olmasa da, burada Usta Qənbərin hansı işləri gördüyü dəqiqləşdirilmiş və surətləri çıxarılmışdır. Bunları 1929-1935-ci illərdə Z.Boqoslavskaya və V.Kvitko, 1945-ci ildə isə N.Miklaşevskaya yerinə yetirmişlər. Həmin rəsmlərin sırasında iki “Ov səhnəsi”nin, “Süsənlər”in, “Döyüş səhnəsi”nin, “Güldanda gül”ün və çoxsaylı nəbati naxış kompozisiyalarının adını çəkmək olar.

Əlavə edək ki, zamanın axarında sarayın ecazkar şəbəkələrlə əhatələnmiş və icra sənətkarlığına görə fərqlənən təsvirlərinin koloriti də müəyyən qədər dəyişmiş, əvvəlcə çox parlaq-işıqlı, sonra bir qədər tünd çalarla əvəzlənmiş, ən nəhayət, axırıncı yenilənmələrdə də ümumi koloritdəki nikbinliyin qorunub saxlanılmasına səy göstərilmişdir. Başqa sözlə desək, əvvəlki şux-əlvan çalarlı rənglərin yerini daha tünd-kərpici, qırmızı, yaşıl, qara, çəhrayı və ağ boyalar tutmuşdur. Əgər ən köhnə rəsmlərdə miniatür üslubunun qabarıqlığı, yeni rəsmlərdə onların bir qədər yeniləşməsi duyulsa da, bütünlükdə, onları bədii həllin dekorativliyi birləşdirir.

Şəki Xan sarayının bədii tərtibatını ov və müharibə səhnələri, eləcə də nəbati və həndəsi ornamentli kompozisiyalar təşkil edir. Əgər ornamentli kompozisiyalara sarayın hər iki mərtəbəsində rast gəlmək mümkündürsə, ov (uzunluğu 450 sm) və müharibə səhnələri (uzunluğu 1200 sm) yalnız onun yuxarı mərtəbəsindədir. Bu süjetli kompozisiyalar çoxfiqurludurlar. Zalın sol divarındakı frizdə beş süjet yer alıb. Burada pələnglə ceyranın yaralanması, maralın ovlanması, əjdaha ilə mübarizə, başqa bir ceyranın hədəfə tuş gəlməsi və gəncin başçılıq etdiyi atlılar təsvir olunub. Bu səhnələrin hər birində dörd-beş nəfərin iştirakını görmək mümkündür. Zalın üzbəüz divarındakı frizi də yuxarıda adlarını çəkdiyimiz süjetlər təşkil edir. Aşağı mərtəbədə özündə zamanında müqəddəs qəbul olunan – stilizə olunmuş tovuz quşlarının mərkəzdəki ”Həyat ağacı”na yönəli təsvirini yaşadan panno da diqqətçəkəndir.

Şəki xanlarının düşmənlərinə qarşı apardıqları döyüşlərdən müxtəlif səhnələr isə zalın qərb və şərq divarlarını tutur. Təsvirin detal və atributlarına əsasən demək olar ki, qərbdə qoşunun ilk hücumu, şərqdə isə onun döyüş meydanından qayıdışı əks olunub. Qalan hissədə – zalın şimal tərəfində (kiçik otaqlara açılan qapıların üzərində) isə gərginliyi duyulan döyüşlərdən fraqmentlər çəkilib.

Sarayda yer almış rəsmlərin mövzusunun XVIII-XIX əsrlərdə Şəki xanlarının həyatında baş verən hadisələrdən – sarayın sifarişçisi Hüseyn xanın apardığı döyüşlərdən qaynaqlandığı birmənalıdır. Qeyd edək ki, Şəkinin sonuncu hökmdarlarından biri olan Fətəli xanın oğlu Kərim ağa Fatehin “Şəki xanlarının qısa tarixi” kitabındakı əhvalatların divar rəsmlərinin cəlbedici süjetləri ilə üst-üstə düşən məqamları kifayət qədərdir...

Sarayın “naxış seli”nə bələnmiş qibtəedici interyerində onun plafonlarının daşıdıqları estetik tutumun rolu da duyulandır. Tikilinin iki əsas zalının hər birindəki iki, ikinci mərtəbənin yan otaqlarının hər birindəki bir plafon bu mənada diqqətçəkəndir. İkinci mərtəbədəki zalın şimal plafonunun əsas sahəsini böyük və işıqlı medalyon tutur. Öz növbəsində onun da ortasında bir qədər kiçik-naxışlı medalyon yer almışdır. Onunla Mehmandarovun evinin (Şuşa) kiçik otağı və ev məscidinin plafonları arasında oxşarlığın mövcudluğu bizə hər iki tərtibatın Usta Qənbər tərəfindən yerinə yetirildiyini ehtimal etməyə əsas verir. İkinci mərtəbənin yan otaqlarındakı plafonlarla Şəkixanovların evindəki zalın plafonlarının oxşar ortaq-oval plafona malik olmalarını da səbəbsiz saymaq olmaz. Ümumi bədii tutumuna görə onlar əsas zalların plafonlarından bir qədər geri qalsalar da, bütünlükdə onların ağ yerliyində mavi budaqlarla əlaqəli verilmiş quş və heyvan təsvirləri kifayət qədər cəlbedici görünür.



Şuşadakı mülklərin buxarılarının bədiiləşdirilməsindəki məziyyətləri Şəki xan sarayında da izləmək mümkündür. Sarayın ikinci mərtəbəsində – interyerin əsas hissəsində eninə yerləşən dekorativ buxarının gözəl şəkillərlə bəzədilmiş görkəmində zalın ümumi aurası ilə həmahəng səsləşən bədii məqamlar kifayət qədərdir. Buxarının yanlarındakı yuxarısı bəzəkli stalaktitli taxçalarda yer almış süjetli kompozisiyalar – Nizami Gəncəvi “Xəmsə”sinin qəhrəmanlarının təsvirləri də məkanın aşıladığı duyğulandırıcılığı gücləndirir, desək, yanılmarıq. Divarlar boyu qərarlaşan müxtəlif ölçülü taxçalarda yerləşdirilmiş “vazada güllər” kompozisiyası, heyvan və quş təsvirləri də interyerin ümumi görkəminin zənginləşməsinə xidmət edir. Salonun bəzək zənginliyi duyulan plafonundakı nəbatat aləmini və qanadlı yarıçılpaq qadını əks etdirən təsvirlərin bədii həlli də onları əhatələyən süjetli-ornamental tutumla gözəl səsləşir...

Əgər bu rəsmlərin bədii məziyyətlərini dəyərləndirməli olsaq, onda burada miniatür üslubu prinsiplərin yeniləşmiş təqdimatının yoxluğu və üst-üstə sıralanmadan nisbi istifadə ilə yanaşı, rəng həllinin şərti-dekorativ tutumunu və dinamikliyin qabarıqlığını şərtləndirən real-gerçəkçi bədii şərhin mövcud olduğunu deyə bilərik.

Müxtəlif tutumlu təsvirlərin ümumi estetikasında bədii ümumiləşdirmələrlə yanaşı, sarayın digər rəsmləri ilə təzad təşkil edən – realizm bədii ənənələrinə tapınan yaradıcılıq nümunələrinə də rast gəlinir. Sarayın birinci mərtəbəsindəki zalın mavi çalarlı stalaktit karnizləri üzərində təsvir olunmuş ayrı-ayrı motivlərin bələndiyi real-gerçəkçi estetika, onların yerli yox, Avropa rəssamlığına bələd sənətkar tərəfindən çəkildiyini söyləməyə əsas verir. Tanınmış sənətşünas Boris Denike saraydakı həmin təsvirləri Çin rəssamlığına aid Orta Asiya divar rəsmləri ilə müqayisə edir: “Bu rəsmlərdə Çin incəsənəti ilə, xüsusən ağ-mavi farfor təsvirləri ilə əlaqəsini görməmək mümkün deyil”.

XIX əsrdə Qafqazın Rusiyaya birləşdirilməsi hadisələrinin bilavasitə iştirakçısı olan ispaniyalı inqilabçı Xuan Van Qalen xatirələrində Şəkidə olmasından söz açmış və sarayın birinci mərtəbəsindəki məişət tutumlu realist rəsmlərin italiyalı əsgər tərəfindən çəkildiyini qeyd etmişdir. Onun yazdıqlarına görə, çin ruhunda işləyən həmin əsgər 1819-1820-ci illərdə sarayda olmuş və burada bir neçə rəsm çəkmişdir...

Sarayın ümumi memarlığının onun eksteryerini və interyerini süsləyən bəzək elementləri – monumental rəsm, ornamental kompozisiya və şəbəkə ilə vəhdətinin yaratdığı qeyri-adi gözəlliyin kökündə sadalanan bədii vasitələrin duyğulandırıcı vəhdətinin əldə olunması durduğundan, memarla təsviri və dekorativ-tətbiqi sənət ustalarının birgə yaradıcılığının məhsulu olan tikili unikal qürurverici mənəvi qaynaq kimi qəbul olunur.

Üç divarın daşıdığı təsvirli zəngin estetik tutumu tikilinin fasadını təşkil edən əlvan şəbəkənin uğurla tamamlamasının nəticəsidir ki, məkan sənətlərin sintezinin uğurlu sonluğu kimi qəbul olunur. Dünya şöhrətli türk şairi Nazim Hikmətin söylədiyi “Əgər Azərbaycanın başqa qədim tikililəri olmasaydı, bircə Şəki Xan sarayını dünyaya göstərmək bəs edərdi” deyimində də məhz tikiliyə verilən yüksək dəyər hifz olunur...

**Ziyadxan ƏLİYEV**
**Əməkdar incəsənət xadimi**

## Xatirə təqvimi — 28-31 iyul

### Azərbaycan

**28 iyul 1935** – Görkəmli bəstəkar, Xalq artisti, professor Vasif Zülfüqar oğlu Adıgözəlov (1935 – 15.9.2006) Bakıda doğulub. Oratoriya (“Odlar yurdu”, “Çanaqqala”), opera (“Ölülər”, “Natəvan”), kantata və mahnıların müəllifidir. Filmlərə musiqi (“Şərikli çörək”, “Həyat bizi sınayır”) yazıb. Bəstəkarlar İttifaqının sədri (2000-2006) olub.

**28 iyul 1937** – Görkəmli bəstəkar, dirijor, Əməkdar incəsənət xadimi Müslüm Məhəmməd oğlu Maqomayev (18.9.1885 – 1937) vəfat edib. Azərbaycan peşəkar musiqili teatrının banilərindən biridir, “Şah İsmayıl” (1916), “Nərgiz” (1935) operalarını yazıb. 1924-cü ildən Opera teatrının rəhbəri və dirijoru, 1929-cu ildən Azərbaycan Radiosunun musiqi şöbəsinin rəhbəri olub.

**28 iyul 1945** – Əməkdar mədəniyyət işçisi, aşıq Səyyad Məşədi oğlu Pənahov (1945 – 16.2.2019) Gədəbəy rayonunun Kərimli kəndində anadan olub.

**29 iyul 1864** – Maarif və mədəniyyət xadimi, teatr təşkilatçısı Həbib bəy Mahmudbəyov (1864-1928 ) Şamaxıda anadan olub.

**29 iyul 1939** – Əməkdar artist, vokal ifaçısı (bariton) Əli Həsən oğlu Haqverdiyev (1939 – 14.9.1992) Bakıda doğulub. Azərbaycan Opera və Balet Teatrının solisti olub, filmlərdə (“Dədə Qorqud”, “Şir evdən getdi”) çəkilib.

**30 iyul 1942** – Tərcüməçi, ədəbiyyatşünas Fərhad Qəmbər oğlu Əliyev (1942-1996) anadan olub.

### Dünya

**28 iyul 1750** – Böyük alman bəstəkarı Yohann Sebastyan Bax (Johann Sebastian Bach; 31.3.1685 – 1750) vəfat edib. Operadan savayı əksər musiqi janrlarında əsərlər, o cümlədən 200-dən çox kantata, 250-dək orqan musiqisi yazıb.

**28 iyul 1812** – Polşa yazıçısı və tarixçisi Yuzef Kraşevski (Jozef İgnacy Kraszewski; 1812-1887) anadan olub. “Sehrli çıraq”, “Qrafinya Kozel”, “Bryul” və s. romanların müəllifidir.

**28 iyul 1866** – İngilis yazıçısı və rəssamı Beatriks Potter (Beatrix Potter; 1866-1943) anadan olub. Uşaqlar üçün əsərlərin müəllifidir: “Uxti-Tuxti”, “Dovşan Piter və digər əhvalatlar”.

**28 iyul 1887** – Fransız rəssamı və incəsənət nəzəriyyəçisi, dadaizm və sürrealizmin banilərindən Marsel Düşam (Marcel Duchamp; 1887-1968) anadan olub.

**29 iyul 1805** – Fransız yazıçısı və tarixçisi Aleksis de Tokvil (Charles Alexis Henri Maurice Clerel de Tocqueville; 1805-1859) anadan olub. Əsərləri: “Amerikada demokratiya”, “Köhnə qayda-qanun və inqilab”.

**29 iyul 1900** – İsveç yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1974) laureatı Eyvind Conson (Eyvind Olov Verner Johnson; 1900-1976) anadan olub.

**29 iyul 1921** – Fransız rejissoru, dünya sənədli kinosunun tanınmış nümayəndəsi Kris Marker (Christian Bouche-Villeneuve; 1921-2012) anadan olub. Filmləri: “Uçuş zolağı”, “Günəşsiz”, “Dərinlikdə hava qırmızıdır” və s.

**30 iyul 1511** – İtalyan memarı, rəssam və yazıçı Corco Vazari (Giorgio Vasari; 1511-1574) anadan olub.

**30 iyul 1818** – İngilis yazıçısı Emili Bronte (Emily Jane Bronte; 1818-1848) anadan olub. Yazıçı Şarlotta Brontenin bacısıdır. Əsərləri: “Tufan aşırımı”, “Mənim qəlbim qorxaq deyil”.

**31 iyul 1866** – Türk yazıçısı Xalid Ziya Uşaqlıgil (1866 – 27.3.1945) anadan olub. “Aşk-ı-memnu”, “Bir ölünün dəftəri”, “Qırıq həyatlar” və s. romanların müəllifidir.

**31 iyul 1886** – Macar bəstəkarı Ferens List (Liszt Ferenc; 1811-1886) vəfat edib. Məşhur əsərləri: “Faust” simfoniyası, “Macar” rapsodiyası.

**31 iyul 1914** – Fransız (ispan əsilli) aktyoru, rejissor Lui de Fünes (Louis Germain David de Funes de Galarza; 1914-1983) anadan olub. “Böyük gəzinti”, “Jandarm və yadplanetlilər” və s. komediya filmləri ilə məşhurlaşıb.

**Hazırladı: Vüqar ORXAN**

# Dnepr şəhərində küçəyə Müslüm Maqomayevin adı verilib

Ukraynanın Dnepr şəhərində küçələrdən birinə Azərbaycanın dünya şöhrətli opera və estrada müğənnisi, bəstəkar, SSRİ Xalq artisti Müslüm Maqomayevin adı verilib.

Dnepr Şəhər Şurasının deputatları Sobornı rayonunda yerləşən 8 Mart küçəsinə sənətkarın adının verilməsi barədə qərar qəbul ediblər. Küçəyə M.Maqomayevin adının verilməsi təklifi ilə “Dnepropetrovşina Azərbaycanlılarının Liqası” təşkilatı çıxış edib.

# Nemətullah Naxçıvaninin əsərinin iki nüsxəsi əldə edilib

Türk-İslam dünyasının elmi və ictimai fikrinin inkişafına böyük töhfələr vermiş, Azərbaycanın təsəvvüf və təfsir alimləri arasında xüsusi yeri olan Nemətullah Naxçıvaninin “Şərhi-“Gülşəni-raz” əsərinin iki müxtəlif nüsxəsinin elektron variantı AMEA-nın Naxçıvan Bölməsinə təqdim edilib.

Türkiyənin İstanbul Universitetinin kitabxanasında saxlanılan nüsxələri Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu əldə edib.

Ehtimal olunur ki, 1500-cü ildə yazılan nüsxə avtoqrafdır. Digər nüsxənin isə üzü 1509-cu ildə, yəni müəllifin sağlığında Qaramanda katib Mənsur ibn-Qənbər Həmədani tərəfindən köçürülüb.

Nüsxələr Naxçıvan Bölməsinin Əlyazmalar Fondunun balansına daxil edilib. Böyük filosof Şeyx Mahmud Şəbüstərinin məşhur “Gülşəni-raz” əsərinə yazılan təfsir gələcəkdə fond əməkdaşları tərəfindən araşdırılacaq.

# Komparativistikanın işığında

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya üzrə elmlər doktoru Aida Feyzullayevanın “Komparativistikanın işığında” kitabı (komparativistika – müqayisəli ədəbiyyatşünaslıq – red.) “Elm və təhsil” nəşriyyatında rus dilində çapdan çıxıb.

Monoqrafiyanın elmi redaktoru AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli, rəyçiləri filologiya üzrə elmlər doktoru Sara Osmanlı və filologiya üzrə fəlsəfə doktoru Cavidə Məmmədovadır.

Kitabda Əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru Məmməd Qocayevin elmi fəaliyyəti, həmçinin klassik rus ədəbiyyatı ilə bağlı tədqiqatları əks olunub. Müəllif Fyodor Dostoyevski və Lev Tolstoyun həyat və yaradıcılığını araşdırarkən yeni mənbələrdən istifadə edib.

Əsərdə həmçinin rus dekadent şairlərinin əsərləri, Şərqin şair-simvolistlər K.Balmont və V.Xlebnikovun həyat və yaradıcılığına təsiri tədqiq olunub.

# Bayburtda Dədə Qorqud festivalı





Türkiyənin Bayburt şəhərində ənənəvi Beynəlxalq Dədə Qorqud Festivalı (Uluslararası Dede Korkut Kültür ve Sanat Şölenleri) keçirilir. Sayca 25-ci festival 22-28 iyul tarixi arasında davam edəcək.

Ölkəmizi bu tədbirdə Azərbaycan Dövlət Akademik Musiqili Teatrının balet truppası təmsil edir. Teatrın mətbuat xidmətindən bildirilib ki, tədbirdə 13 əsrlik zaman kəsiyində öz tarixi öyüdləri ilə yaşayan və türk coğrafiyasında hikmətli nəsihətləri ilə mənəvi varlığını sürdürən Dədə Qorquda məhəbbətin izharı olaraq türkdilli dövlətlərdən dəvət olunmuş qonaqlarla yanaşı, qonşu ölkələrdən gəlmiş folklor kollektivləri də iştirak edirlər.

İştirakçılar Bayburtun Masat kəndində Dədə Qorqudun qəbri hesab edilən türbəni də ziyarət ediblər.

Masat yaylasında başlayan şənliklər Dədə Qorqudun şəhər mərkəzindəki abidəsi önündən yürüşlə davam etdirilib. Yerli sakinlər, habelə bu günlərdə dünyanın hər yerindən axışaraq bu şənliyə qatılan yüzlərlə tədbir iştirakçısı Mustafa Kamal Atatürkün adını daşıyan meydanda Azərbaycan, Gürcüstan və Türkiyənin rəqs və folklor kollektivlərinin çıxışlarını maraqla izləyiblər.

## Latviya televiziyasında Azərbaycana həsr olunmuş veriliş

Latviyanın ictimai televiziyasında yayımlanan "Dünyanın 700 möcüzəsi" adlı verilişin budəfəki mövzusu Azərbaycan olub.




Verilişdə Azərbaycanın xalq sənəti olan meyxananın incəlikləri, habelə məşhur qəzəlxan Əliağa Vahid barədə məlumat verilib.

Bildirilib ki, meyxananı ilk dəfə yazılı ədəbiyyata Əliağa Vahid gətirib. Qəzəlxan şair bu janrda öz qələmindən məharətlə istifadə edərək təsirli şəkildə ictimai-siyasi və tənqidi məzmunlu meyxanaları ilə çıxış edib, geniş rəğbət qazanıb.

Daha sonra ölkəmizdə daş üzərində oyma sənəti haqqında da süjet təqdim olunub.

## Türk xalqının qurtuluş mücadiləsində dönüş nöqtəsi

### Ərzurum Konqresinin 100 illiyi qeyd olunub

Mustafa Kamal Atatürkün rəhbərliyi ilə türk xalqının milli qurtuluş mücadiləsində tarixi rol oynamış Ərzurum Konqresindən 100 il ötür. Bu münasibətlə Ərzurum şəhərində təntənəli mərasim təşkil olunub.

Mərasimdə Türkiyənin dövlət və hökumət nümayəndələri, ölkə ictimaiyyətinin tanınmış simaları iştirak ediblər.

Mərasimdə məlumat verilib ki, 1919-cu il iyulun 23-də başlayıb avqustun 7-dək davam edən Ərzurum Konqresi müasir Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün rəhbərliyi ilə Anadoluda başlanan milli qurtuluş mübarizəsinin həlledici mərhələlərindən biridir.

Konqresdə səkkiz bənddən ibarət qətnamə qəbul olunmuşdu və ilk müddəası belə idi: milli sərhədlər çərçivəsində vətən bölünməz bir varlıqdır və parçalana bilməz. Ərzurum Konqresinin keçirildiyi dövrdə Osmanlı dövlətinə qarşı döyüşən güclər ölkənin qərbində İzmir və digər bölgələrin işğalından sonra Trabzon və Ərzurum da daxil olmaqla indiki Türkiyənin şərqini də ələ keçirmək niyyətində idi. Mustafa Kamal paşanın ətrafında birləşən türk xalqı düşmənin bütün mənfur niyyətlərini puç etdi.

Rəsmi hissədən sonra mərasim bədii proqramla davam edib. Tarixi hadisələri əks etdirən rəsm sergisi açılıb. Ərzurumun mərkəzində izdihamlı yürüş keçirilib.

**Mehparə SULTANOVA**
**Ankara**

## Rusiya imperiyasının ikona sənəti sərvətləri Bakıya gətiriləcək

Oktyabrın 12-də Bakıdakı Heydər Əliyev Mərkəzində Rusiya Dövlət Tretyakov Qalereyası və Rus İkonası Muzeyindən toplanmış ikona sənəti inciləri və dini heykəltəraşlıq nümunələrindən ibarət sərgi açılacaq.



İmperator Pravoslav Fələstin Cəmiyyətinin də dəstək verdiyi sərgi mədəniyyətlərarası əlaqələrə töhfə olan layihədir. "Rusiya imperiyasının ikona sənəti sərvətləri. Tretyakov Qalereyası və Rus İkonası Muzeyindən XVIII–XX əsrin əvvəllərinə aid abidələr" adlı sərgidə izləyicilərə 100-dən çox ikona, heykəltəraşlıq nümunəsi, Pasxa yumurtaları təqdim ediləcək.

Sərgilənəcək əsərlər rus ikona sənətinin son dövrlərinə aiddir. Həmin vaxtların əsərləri xüsusi dəbdəbəsi ilə seçilir: qızıl işləmələrə üstünlük verilir və detallar incəliklə işlənirdi. Sərginin eksponatları bu sahənin əsas regionları – Moskva, Tver, Volqaboyu, Vladimir vilayətinin Palex və Mstera kəndlərini, Ural regionundakı qədim Nevyansk şəhərini əhatə edir. Sərginin seçilən eksponatları sırasında XIX əsrin son iki onilliyində - XX əsrin əvvəlində Moskvada öz emalatxanalarını yaradan və yeni paytaxt üslubunun yaradıcılarından olan Mstera ikona sənəti nümayəndələrinin əsərləri də yer alacaq.

Ənənəvi metal üzərində oyma texnikası ilə hazırlanmış çekankalar (metal lövhə üzərində relyefli döymə), emalla, mirvari və digər qiymətli daşlarla bəzədilmiş çərçivələr, eləcə də modern epoxasında yaradılan çərçivələr ziyarətçilərin marağına səbəb olacaq. Ziyarətçilər ikona sənətinin parlaq nümunələri vasitəsilə unikal rus bədii mədəniyyətinin zənginliyi ilə tanış olmaq imkanı qazanacaqlar.

Qeyd edək ki, "Rusiya imperiyasının ikona sənəti sərvətləri. Tretyakov qalereyasından və Rus ikonası Muzeyindən XVIII-XX əsrin əvvəllərinə aid abidələr" layihəsi Şərqdə ilk dəfə Bakıda təşkil olunur.

Sərgi Heydər Əliyev Mərkəzində dekabrın 15-dək davam edəcək.

## Gürcü pianoçu Üzeyir Hacıbəyli festivalında çıxış edəcək




Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 18-30 sentyabr tarixində XI Beynəlxalq Üzeyir Hacıbəyli Musiqi Festivalı keçiriləcək. Builki festivalda ABŞ, Rusiya, Çin, Türkiyə, İtaliya, Özbəkistan, Belarus, Bolqarıstan, Ukrayna, Gürcüstandan tanınmış musiqiçi və kollektivlərin iştirakı ilə 40-a yaxın tədbirin keçirilməsi nəzərdə tutulub.

Festival çərçivəsində sentyabrın 22-də Heydər Əliyev Sarayında Xalq artisti, dirijor Rauf Abdullayevin rəhbərliyi ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və tanınmış gürcü pianoçu Xatia Buniatişvili çıxış edəcək.

Konsert proqramında Fikrət Əmirov, Niyazi və Elmira Nəzirovanın əsərləri ifa olunacaq.

## Ən qədim yaşayış məskənlərinin xarabalıqları tapılıb



Çinin Tszyansu əyalətinin Usi şəhərində arxeoloqlar ən qədim yaşayış məskənlərinin xarabalıqlarını tapıblar. Ümumi sahəsi 60 min kvadratmetr olan bu tapıntılar Şan və Çjou sülalələrinin hakimiyyəti dövrünə (e.ə. 1600-256-cı illər) aid edilir.

Çin arxeoloqları ötən ilin sentyabrından Bodu çayının sahilləri boyu qazıntılar aparıblar və bu yaşayış məskənlərini aşkar ediblər. Hazırda həmin ərazidə 200 tikilinin qalıqları tapılıb. Onların sırasına tikinti obyektləri, kanallar və quyular daxildir. Qazıntılar zamanı bir çox qədim əşyalar, o cümlədən bərk keramika nümunələri, polimer və gildən düzəldilmiş alətlər və qablar da tapılıb. Arxeoloji ekspedisiya məlumat verib ki, hazırda 100-dən çox keramika məmulatı tapılıb. Onların radiokarbon üsulu ilə müayinə edilməsi göstərib ki, bu əşyaların hamısı Şan və Çjou sülalələrinin hakimiyyəti dövrünə aiddir.

Çinin Usi şəhərinin Mədəniyyət Abidələri və Arxeoloji Tədqiqatlar İnstitutundan bildiriblər ki, bu tapıntılar həmin ərazidə aşkar edilən ilk qədim yaşayış məskənləridir. Onlar yerli arxeoloqlara əyalətin qədim mədəniyyəti və adət-ənənələrini öyrənməyə imkan verəcək.

## Yemədim, üzüm qaldı...

### Salxımı 11 min dollara satılıb



Yaponiyanın İşikava prefekturasındakı hərraclarda "Ruby Roman" ("Roma yaqutu") növündən olan bir salxım üzüm 1,2 milyon yenə (təqribən 11 min dollar) satılıb.

Kyodo agentliyinin məlumatına görə, həmin salxımı Yaponiya mehmanxanalar şəbəkəsinin meneceri alıb. O deyib: "Biz "Ruby Roman" üzüm növünün bazara çıxarılmasının 12-ci ildönümü ilə əlaqədar 1,2 milyon yen təklif etdik".

Agentliyin bildirdiyinə görə, cari il sentyabrın sonlarınadək həmin növdən olan 26 min üzüm salxımının satılacağı gözlənilir.

"Ruby Roman" dünyada ən bahalı üzüm növü hesab edilir. Yapon seleksiyaçılar həmin üzüm növünü 1994-cü ildə əldə etsələr də, o, yalnız 2008-ci ildə satışa çıxarılıb. Bu üzüm növü yaqut rəngi ilə seçilən, iri və şirəli olan çox dadlı meyvələrə malikdir.

## "Sonuncu duel"

Məşhur rejissor Ridli Skott "Sonuncu duel" adlı yeni filmini çəkməyə hazırlaşır. Filmdə baş rollarda Ben Afflek və Mett Deymon çəkiləcəklər.



Film Erik Yagerin "Sonuncu duel: Orta əsrlərdə Fransada cinayət, qalmaqal və məhkəmə proseslərinin həqiqi tarixi" kitabı əsasında ekranlaşdırılacaq. Bundan əlavə, Afflek və Deymon filmin ssenarisinin yazılması prosesinə cəlb olunacaqlar. Bu işdə onlara rejissor Nikol Holofsener kömək edəcək.

## "Queen" 40 illik şöhrətini davam etdirir

### Qrup üç yeni klip buraxmağa hazırlaşır

Britaniyanın dünyaca məşhur "Queen" rok qrupu üç yeni klip buraxmağa hazırlaşır. Qrup bu barədə özünün sosial şəbəkə səhifəsində məlumat verib.




Bildirilir ki, musiqiçilər bu yolla "Bohemian Rhapsody" mahnısının klipinin "YouTube" platformasında 1 milyard baxış sayı toplamasını qeyd etmək istəyirlər.

Bu məqsədlə ifaçılar müsabiqə elan ediblər. Müsabiqə şərtlərinə görə, "Queen"in bütün pərəstişkarları həmin videokliplərin yaradılmasında iştirak edə bilərlər.

Müsabiqə qrupun "Biz qalibik" ("We are the Champions") mahnısının analogiyası üzrə "Siz qalibsiniz" ("You are the Champions") adı altında keçiriləcək.

Ötən əsrin 70-ci illərində məşhurlaşan və rok musiqisi tarixinin ən uğurlu qruplarından sayılan "Queen" bu gün də milyonlarla pərəstişkara malikdir.

Bu yaxınlarda qrupun "Bohemian Rhapsody" mahnısı "YouTube" kanalında köhnə kliplər arasında rekord vurub. Mahnıya çəkilmiş videoklipi 1990-cı illərədək bəstələnən mahnılar arasında ilk dəfə 1 milyarddan çox tamaşaçı izləyib.

Köhnə mahnılar arasında "Queen" qrupundan sonra ikinci yeri 965 milyon baxış sayı ilə "Guns N' Roses" ansamblının "Sweet Child O' Mine" mahnısı tutur.

"YouTube" kanalında yeni mahnılar arasında ən çox baxılan isə Luis Fonsi və Daddy Yankinin 2017-ci ildə təqdim etdikləri "Despacito" mahnısıdır. Bu videoklipə rekord sayda – 6,3 milyard baxış olub.

**İLONA**

## Rəqslərimiz isveçrəli məktəblilərə öyrədilir



İsveçrədə yaşayan soydaşlarımız bu ölkənin ictimai və mədəni həyatına inteqrasiya səciyyəli tədbir və layihələrdə fəal iştirak etməyə çalışırlar. Bu layihələrdən biri də miqrantların mədəniyyətinin təbliğ olunması ilə bağlıdır.

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, artıq üç ildir ki, Aargau bölgəsinin Miqrasiya və İnteqrasiya Departamentinin maliyyə dəstəyi ilə həyata keçirilən layihə məktəblərdə təqdim olunur. Layihənin rəhbəri İsveçrədəki Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Qasım Nəsirovdur.

Q.Nəsirov bildirib ki, əsas məqsəd məktəbliləri ölkədəki miqrantların mədəniyyətləri ilə tanış etmək, onlara inteqrasiya barədə məlumat verməkdir. Layihə çərçivəsində məktəblilərə Azərbaycan rəqsləri də öyrədilir. Bunun üçün "Qarabağ" Azərbaycan məktəbinin müəllimi Gülnarə Axundova layihədə iştirak etməyə dəvət edilib. O, isveçrəli uşaqlara milli rəqslərimizi öyrədir.

Qeyd edək ki, bu yaxınlarda Aargauda 16 yaşlı məktəblilərin iştirakı ilə təqdim olunan Azərbaycan rəqsləri böyük maraqla qarşılanıb.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 530-34-38 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5150
**Sifariş:** 2485
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.